

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 02 - fevral 2019



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

# QANUNÇULUQ
## hüquq jurnalı

**№ 02 - fevral 2019**



TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




**Qaynar xətt**
**539-76-75**

# Mündəricat



## RƏSMİ MƏLUMAT


Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı ....5
Gürcüstanın Prezidenti Salome Zurabişvilinin Azərbaycana rəsmi səfəri ....7
Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar ümumxalq yürüşü ....10
Sükut dəqiqəsi ....14
"Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 fevral tarixli 930 nömrəli Sərəncamı ....15




## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Xocalı soyqırımının 27-ci ildönümü ədliyyə orqanlarında yad edilib ....16
Milli Məclisdə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə dinlənilib ....18
Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə (2018-ci il üzrə) (Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Vilayət Zahirovun Milli Məclisdə çıxışı) ....18
Ədliyyə fəaliyyəti dövlət başçısının tapşırıqlarına uyğun təkmilləşir ....24
Məhkəmə-Hüquq Şurasının məlumatı....27
Azərbaycan və Belarus Ədliyyə nazirlikləri səmərəli əməkdaşlıq edir....30
Belarus Ədliyyə Nazirliyinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədovun çıxışı ....32

Dünya Bankı ilə ədliyyə sahəsində birgə layihələr uğurla həyata keçirilir ....36
Ədliyyə naziri Xaçmazda vətəndaşları qəbul edib....37
Qlobal Fond nümayəndələri ilə Penitensiar xidmətdə görüş....38
Ədliyyə sahəsində innovasiyalar təqdir olunur....39
Gənclər günü Ədliyyə Nazirliyində qeyd olunub....40
Gənclər ədliyyə sahəsində könüllü fəaliyyətə dəvət olunur ....41
İcra baş idarəsi və ABA arasında görüş ....42
Pilot bələdiyyələr üçün seminar keçirilib ....43
Ədliyyə Akademiyasının məlumatları ....43

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1393-VQD nömrəli Qanunu....46
"Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1470-VQD nömrəli Qanunu ....47
"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1502-VQD nömrəli Qanunu ....47
"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1503-VQD nömrəli Qanunu ....48
"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1504-VQD nömrəli Qanunu....48
"Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 1 fevral tarixli 509 nömrəli Fərmanı....49
"Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 fevral tarixli 551 nömrəli Fərmanı ....50
"Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulmuş "gün" anlayışına dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2019-cu il 14 fevral tarixli Qərarı ....52

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1828 Tiraj:1100 ədəd



# Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı

**Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısı tədbirdə nitq söyləyib.

Gənclər Günü münasibətilə təbriklərini çatdıran Prezident İlham Əliyev bu günün ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə təsis edildiyini xatırladıb, Ümummilli Liderin gənclərə həmişə böyük sevgi və qayğı ilə yanaşdığını bildirib. Dövlətimizin başçısı Azərbaycanda müasir gənclər siyasətinin 1994-cü ildən başladığını, həmin il Ulu Öndərin o zaman mövcud olan çətinliklərə baxmayaraq, Gənclər və İdman Nazirliyini yaratdığını və bunun da gənclər üçün imkanlar açdığını vurğulayıb. Prezident İlham Əliyev ölkəmizdə gənclərlə bağlı dövlət proqramlarının qəbul olunduğunu, müxtəlif mötəbər beynəlxalq tədbirlərin keçirildiyini bildirib, bölgələrdə Gənclər mərkəzlərinin, Olimpiya İdman komplekslərinin açıldığını qeyd edib.

Müstəqillik dövründə yaşamağın gənclər üçün böyük xoşbəxtlik olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin hərtərəfli inkişafında gənclərin roluna toxunub, onların cəmiyyətin fəal üzvləri olduğunu söyləyib. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan gəncləri peşəkar olmalı, milli və vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. "Haqlı olaraq gənclərimizlə fəxr edə bilərik", - deyən dövlətimizin başçısı şəhidlərimizin böyük əksəriyyətinin gənclər olduğunu vurğulayaraq qeyd edib ki, hər bir gəncin əsas vəzifəsi müstəqilliyimizi möhkəmləndirmək olmalıdır.



Prezident İlham Əliyev Azərbaycanın son illərdə qazandığı uğurlardan və sosial-iqtisadi inkişafdan danışıb, ölkəmizin beynəlxalq nüfuzunun artdığını vurğulayıb, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hüquqi, siyasi və digər cəhətlərdən mövqelərimizin möhkəmləndiyini qeyd edib.

Azərbaycanda könüllülər hərəkatının geniş vüsət aldığını deyən dövlətimizin başçısı təxminən 20 min gəncin könüllü olaraq çalışdığını və indi müxtəlif təşkilatlarda müxtəlif vəzifələrdə işlədiyini, könüllülər hərəkatının cəmiyyətdə xeyirxahlığın, yeni davranış qaydalarının təbliğində xüsusi əhəmiyyətini qeyd edib, dövlət təşkilatlarına gəncləri önə çəkmələrini tövsiyə edib.

Ölkə rəhbəri bütün dövlət təşkilatlarına, həmçinin özəl sektora könüllüləri cəlb etməyi, onların dövlət qurumlarında, nazirliklərdə, digər dövlət təşkilatlarında təcrübə keçmələrinə şərait yaradılmasını da tövsiyə edib. Bildirib ki, bu gün Azərbaycan dünyada çox sürətlə inkişaf edən ölkə kimi tanınır. Biz isə əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim irəliyə baxmalıyıq və ilk növbədə, bu gün həll edə bilmədiyimiz məsələləri həll etməliyik, nöqsanları, problemləri aradan qaldırmalıyıq. Əlbəttə ki, gənclər bu sahədə bizim ən birinci yardımçılar ola bilərlər və olmalıdırlar. Ona görə ictimai nəzarətin gücləndirilməsi çox önəmli məsələdir. Mütləq ictimai nəzarət olmalıdır. Çünki ictimai nəzarət olan yerdə işlər daha yaxşı gedir. Dövlətimizin başçısı gəncləri bu məsələyə diqqət yetirməyə çağırıb.

Çıxışının sonunda Prezident İlham Əliyev Azərbaycan gənclərinə inandığını və güvəndiyini bəyan edərək onlara uğurlar arzulayıb.

Sonra gənclər siyasətinə həsr olunan film nümayiş olunub.

Daha sonra Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova, Qarabağ qazisi Kamil Musəvi, Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi, "Human Foundation"un təsisçisi Fəridə Əsgərzadə, YAP Gənclər Birliyinin sədri Seymur Orucov, Regional İnkişaf İctimai Birliyinin nümayəndəsi Aydan Ramazanova, Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, tələbə gənclər təşkilatının sədri Ayxan Hüseynli, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsi Ülkər Əsədova, şəhid polkovnik-leytenant Raqif Orucovun oğlu Aqşin Oruclu, "ASAN" könüllüsü Emilya Bayramova çıxış ediblər.

Sonra bir qrup gəncin təltif olunması mərasimi keçirilib.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səslendirilməsi ilə yekunlaşıb.





# Gürcüstanın Prezidenti Salome Zurabişvilinin Azərbaycana rəsmi səfəri

**Fevralın 27-də Gürcüstanın Prezidenti xanım Salome Zurabişvili Azərbaycanda rəsmi səfərdə olub.**

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin təkbətək görüşü olub.

Prezidentlər görüşdə çıxış ediblər. Dövlətimizin başçısı bu yaxınlarda prezident seçkilərində qazandığı qələbə münasibətilə xanım Salome Zurabişvilini təbrik edib, hazırkı səfərin Gürcüstan-Azərbaycan dostluq əlaqələrinin inkişafı üçün çox önəmli addım olacağına əminliyini bildirib. Bir-birinə çox yaxın olan ölkələrimizin bütün sahələrdə uğurlu əməkdaşlıq etdiyini və bu əlaqələrin gündən-günə dərinləşdiyini qeyd edib, siyasət, iqtisadiyyat, mədəniyyət, nəqliyyat, energetika sahələrində çox gözəl nəticələrin olduğunu vurğulayıb.

Gürcüstan Prezidenti Salome Zurabişvili regiona ilk səfərini dost olan qardaş ölkəyə - Azərbaycana səfərindən məmnunluğunu bildirib. Qeyd edib ki, bizim münasibətlərimizin alternativi yoxdur və perspektivli əlaqələrimiz var. Region üçün və dünya üçün yeni perspektivlər açılır. Bu baxımdan əlaqələrimizi dərinləşdirmək daha da böyük əhəmiyyət kəsb edir.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib. Prezident İlham Əliyev Gürcüstan və Azərbaycanın yaxın dost, qardaş ölkələr olduğunu, əsrlər boyu mehriban qonşuluq şəraitində yaşadığını və bu gün uğurla inkişaf etdiyini bildirib, birgə həyata keçirdiyimiz layihələrin həm ölkələrimiz, həm qitə, həm də dünya üçün önəmli olduğunu vurğulayıb, ölkələrimizin bütün məsələlərdə hər zaman bir-birimizin yanında olacağına, dəstək göstərəcəyinə əminliyini ifadə edib.

Gürcüstan Prezidenti Salome Zurabişvili ölkələrimizi böyük tarix, ənənələr birləşdirdi-



Azərbaycan və Gürcüstan prezidentlərinin görüşü

yini, 100 il əvvəl birlikdə müasir dövlət qurmağa başladığını bildirib, son illər eyni faciələri yaşadığımızı qeyd edərək vurğulayıb ki, ərazi bütövlüyü hələ bərpa olunmayıb. İşğal məsələsi bizim üçün hələ də açıq yara kimi qalır. Bu, bir tərəfdən bizim inkişafımıza mane olur, digər tərəfdən biz bunlara, bu faciələrə baxmayaraq, dövlətimizi, iqtisadiyyatı gücləndirməyə nail olduq. Bizim yolumuz müstəqillik yoludur və belə də davam edəcəyik.

Geniş tərkibdə görüş başa çatandan sonra dövlət başçıları həmçinin mətbuata bəyanatlarla çıxış ediblər.

Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Gürcüstanın Prezidenti xanım Salome Zurabişvilinin şərəfinə rəsmi ziyafət verilib. Dövlət başçıları rəsmi ziyafətdə çıxış ediblər.

Fevralın 27-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Gürcüstan Prezidenti Salome Zurabişvili ilə görüşüb.

Gürcüstan Prezidentini Azərbaycanda görməkdən məmnunluğunu bildirən Birinci vitse-prezident bu səfərin dost ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Azərbaycana səfərindən şad olduğunu deyən Prezident Salome Zurabişvili burada keçirilən görüşlərin əlaqələrimizin inkişafı baxımından əhəmiyyətini qeyd edib.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələr üzrə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Gürcüstan Prezidenti xanım



Azərbaycan və Gürcüstan prezidentlərinin mətbuata bəyanatlarla çıxışı



Gürcüstan Prezidenti Salome Zurabişvilinin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın görüşü

Salome Zurabişvili və Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov birgə işçi nahar ediblər. Səmimi söhbət zamanı Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Prezident Salome Zurabişvilinin Milli Məclisinin sədri Oqtay Əsədov ilə keçirilmiş görüşündə Azərbaycan-Gürcüstan əlaqələrinin bütün sahələrdə inkişafından danışılıb, iki ölkənin parlamentlərarası əlaqələrinin də yüksək səviyyədə olduğu, hər iki parlamentdə dostluq qruplarının fəaliyyət göstərdiyi vurğulanıb. Bildirilib ki, parlamentlər səviyyəsində əlaqələrin daha da dərinləşməsi dövlətlərarası münasibətlərin inkişafına müsbət təsirini göstərir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

Səfər çərçivəsində Gürcüstan Prezidenti xanım Salome Zurabişvili Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Gürcüstan dövlətinin başçısı görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini anıb, məzarı üzərinə tər güllər düzüb.

Ali qonaq həmçinin, Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Gürcüstan Prezidenti Salome Zurabişvili Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC-a) və Azərbaycan Televiziyasına məxsusi müsahibə verib.

Fevralın 28-də Qax rayonuna səfər edən Gürcüstan dövlətinin başçısı rayonun Qaxingiloy kənd tam orta məktəbi ilə tanış olub, sinif otaqlarını gəzib, müəllim və şagirdlərlə söhbət edib. Ali qonaq həmçinin kənddə yerləşən "Müqəddəs Georgi" kilsəsini ziyarət edib, kilsədə şam yandırıb, dini ayin icra olunub.

Xanım Salome Zurabişvili Qax şəhərinin qədim tarixi hissəsi - "İçəribazar" tarix-mədəniyyət kompleksi ilə də tanış olub, "El Resort" otelinin Konfrans Mərkəzində rayonun gürcü icması ilə görüşüb.

Həmin gün Gürcüstan Prezidentinin Azərbaycana rəsmi səfəri başa çatıb.

# Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar ümumxalq yürüşü



**Bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda ümumxalq yürüşü keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yürüşdə iştirak ediblər.

Paytaxtın Azadlıq meydanından Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başlayan və on minlərlə insanın iştirak etdiyi ümumxalq yürüşünün məqsədi Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.



Ön sırada Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın olduqları ümumxalq yürüşünün iştirakçıları qanlı qırğının günahsız qurbanlarının - xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretlərini, 27 il əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkilləri, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq,








bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adlarının, soyadlarının əks olunduğu Azərbaycan, rus, ingilis dillərində plakatlar və transparantlar tutmuşdular. Marşrut boyunca yolların kənarlarındakı monitorlarda, binaların fasadlarında və eyvanlarında "Dünya Xocalı soyqırımını tanımalıdır!", "Xocalıya ədalət!", "Xocalını unutmayın!", "Rədd olsun erməni faşizmi!", "Xocalı - XX əsrin soyqırımı", "Cinayətkarlar cəzasız qalmayacaqlar!", "Xocalı soyqırımı - 27 il", "Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir", "Xocalı, sözün bitdiyi yer", "Viran edilən Xocalı yenidən dirçələcək" və s. şüarlar nümayiş etdirilirdi.

Ümumxalq yürüşü iştirakçılarının hüznlü çöhrələrinə baxanda görünürdü ki, ötən 27 il Xocalının dinc sakinlərinə qanlı divan tutulmasının dəhşətlərini yaddaşlardan silə bilməyib. Bircə gecədə yerləyeksan edilmiş bu Azərbaycan şəhərinin adı indi Xatın, Liditse və Sonqmi ilə qoşa çəkilir.

Bütövlükdə bu ümumxalq yürüşü Azərbaycanın Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin növbəti mərhələsidir. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin sonunda bütün sivil bəşəriyyətin gözü qarşısında törədilmiş bu vəhşiliyə laqeydlik, yüzlərlə dinc insanın ölümündə təqsirkar olanların cəzalandırılmaması belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər. Bu yürüş həm də Azərbaycan xalqının sıx birliyini, onun öz şəhidlərinin xatirəsinə ehtiramını, işğal altındakı torpaqların azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirib.

***

Xocalı soyqırımı qurbanlarının abidəsinin ətrafında fəxri qarovul dəstəsi və tər çiçəklər düzülmüşdü.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad edib.

Birinci vitse-prezident xanım Mehriban Əliyeva, Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla

Əliyeva, Arzu Əliyeva abidənin önünə tər güllər qoyublar.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri də abidənin önünə güllər düzüblər.

***

Ümumxalq yürüşündə Rusiyadan gələn nümayəndə heyəti də iştirak edib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva nümayəndə heyəti ilə görüşüb söhbət ediblər.

Heyətə Rusiya Federasiyası Dövlət Dumasının beynəlxalq əlaqələr üzrə komitəsinin sədr müavini, dünya şöhrətli idmançı İrina Rodnina, Dövlət Dumasının təhlükəsizlik və korrupsiya əleyhinə komitəsi sədrinin birinci müavini Dmitri Savelyev, Dövlət Duması Federal Məclisinin ailə, qadın və uşaq məsələləri üzrə komitəsinin sədr müavini Oksana Puşkina, Dövlət Dumasının dövlət əhəmiyyətli tikinti və qanunvericilik üzrə komitəsi sədrinin birinci müavini Mixail Yemelyanov, Dövlət Dumasının deputatları Tatyana Sibizova, Denis Parfenov və Aleksey Juravlev, Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, Azərbaycanın dostları qrupunun əlaqələndiricisi, tanınmış politoloq Sergey Markov və həmin institutun MDB ölkələri departamentinin rəhbəri Aleksey Bıçkov, hərbi ekspert, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko, rusiyalı yazıçı, rejissor Aleksandr Rusnak, Rusiya Hökuməti yanında Maliyyə Universitetinin sosiologiya və politologiya fakültəsinin dekanı Aleksandr Şatilov daxildir.

Sonra Prezident İlham Əliyev Rusiyanın "Rossiya-24" kanalına müsahibə verib.

***

Tarixi faktlar göstərir ki, əzəli Azərbaycan torpaqlarında - indiki Ermənistanda, Dağlıq Qarabağ bölgəsində və onun ətrafındakı yeddi rayonda yaşayan azərbaycanlılar erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalaraq, doğma yurdlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevriliblər. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara qarşı terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparıblar. Təkcə XX əsrdə azərbaycanlılar dörd dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalıblar.

SSRİ-nin süqutundan dərhal sonra isə yenicə yaranmış Ermənistan Respublikasının ilk addımları dövlət səviyyəsində zor tətbiqi və Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə etməkdən ibarət oldu. Bütün bunların nəticəsində Azərbaycan Respublikası ərazilərinin təqribən beşdəbiri işğal edildi, zəbt olunmuş torpaqlarda və Ermənistanın öz ərazisində bir milyondan artıq köklü azərbaycanlı etnik təmizləməyə məruz qaldı. Bu təcavüz zamanı mülki azərbaycanlı əhaliyə qarşı çoxsaylı müharibə, insanlıq əleyhinə cinayətlər, o cümlədən soyqırımı aktları törədildi. Bu cinayətlərə görə məsuliyyəti məhz təcavüzkar tərəf olan Ermənistan Respublikası daşıyır.

Müharibənin gedişinin ən faciəvi səhifəsi Xocalı şəhərinin işğalı oldu. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən bu şəhərdə müharibədən əvvəl 7 min insan yaşayırdı. 1991-ci ilin oktyabrından şəhər Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə mühasirəyə alındı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə kütləvi artilleriya zərbələrinin ardınca Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalını işğal etdilər. İşğalçılar Xocalını darmadağın edərək xüsusi amansızlıqla onun dinc əhalisinin soyqırımını törətdilər.

Bu müdhiş soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Qırğın zamanı

487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Həmçinin 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib. Həmin insanlar yalnız etnik mənsubiyyətlərinə - azərbaycanlı olduqlarına görə amansızcasına öldürülüb, işgəncələrə məruz qalıb və şikəst ediliblər. Ermənistan silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulub.

Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı başlanan müharibənin səbəbləri və nəticələrinin ümumi qiymətləndirilməsi, Xocalıdakı faciəvi hadisələrin bütün mövcud faktları qəti şəkildə sübut edir ki, Azərbaycanın bu şəhərində törədilmiş cinayətlər sıradan və təsadüfi hərəkət deyil, Ermənistanın sistemli zorakılıq siyasətinin tərkib hissəsi olub. Xocalıdakı mülki insanların məqsədyönlü qırğını, sadəcə, azərbaycanlı olduqları üçün onların kütləvi məhvinə yönəlmişdi. Beynəlxalq hüquqa görə belə hərəkətlər "soyqırımı" anlayışına uyğundur və dünya ictimaiyyəti tərəfindən bu cür tanınmalıdır.

Azərbaycan Respublikasına qarşı davam edən təcavüz fonunda Ermənistan tərəfindən törədilmiş müharibə, insanlıq əleyhinə cinayətlər və Xocalı soyqırımı insan hüquqları və beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiya, Uşaq hüquqları haqqında Konvensiya və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilib. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olub, biliblər ki, ermənilər öz sərsəm ideyalarını həyata keçirmək naminə heç nədən, hətta uşaqları belə qətlə yetirməkdən çəkinmirlər. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər. Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qətlə yetirilməsinin "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" olduğunu müəyyən edib.

Hər il olduğu kimi, bu il də Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimləri keçirilib. Bu aksiyaların iştirakçılarına Fond tərəfindən hazırlanmış, Qarabağın və Ermənistan-Azərbay-

can Dağlıq Qarabağ münaqişəsinin tarixindən bəhs edən materiallar, bukletlər, fotoalbomlar və kitablar paylanılıb. Aksiyalar çərçivəsində ermənilərin vəhşiliklərindən bəhs edən sənədli filmlər nümayiş etdirilib, rəsm sərgiləri təşkil olunub. Qardaş Türkiyədə, ABŞ-da, Almaniyada, Avstriyada, Belçikada, Gürcüstanda, Hollandiyada və digər ölkələrdə keçirilən mitinqlər, anım tədbirləri, konfranslar, sərgilər, müsabiqələr ictimaiyyət arasında böyük əks-səda doğurub.

Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda növbəti ümumxalq yürüşü dünya ictimaiyyətinə bir mesajdır ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək, ərazi bütövlüyünü bərpa edəcək. Hər kəsə aydın olmalıdır ki, Xocalı soyqırımını törədənlərin cəzasız qalması, münaqişənin nizama salınmaması nəinki Cənubi Qafqaz regionunda, həm də bütün dünyada sülh və sabitlik üçün təhlükə törədir. Bunu 2016-cı il aprel ayının əvvəllərində cəbhə xəttində baş vermiş hadisələr bir daha sübut edir. Ermənistan silahlı qüvvələri növbəti təxribatlara əl ataraq, cəbhə xətti boyunca yerləşən yaşayış məntəqələrini güclü atəşə tutdular. Azərbaycan Silahlı Qüvvələri dinc sakinlərin təhlükəsizliyini təmin etmək üçün cavab tədbirləri görməyə məcbur oldu. Genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində Azərbaycan torpaqlarının bir hissəsini işğalçılardan təmizlədi. Xalqımızın, dövlətimizin, ordumuzun mübarizə əzminin yenilməzliyini təsdiq edən 2016-cı ilin Aprel döyüşləri və ötən ilin mayında Naxçıvan əməliyyatı sübut etdi ki, torpaqlarımız yağı düşməndən azad ediləcək, şəhidlərimizin qanı yerdə qalmayacaq.

***

Bütün gün ərzində Xocalı soyqırımı qurbanlarının abidəsi önünə insan axını davam edib. On minlərlə insan soyqırımı abidəsini ziyarət edib. Abidənin önünə tər çiçəklər qoyulub, şəhidlərin ruhuna dualar oxunub.

# Sükut dəqiqəsi

**Fevralın 26-da Bakı vaxtı ilə saat 17:00-da Azərbaycanın bütün ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.**

Həmin anda paytaxtın küçələrində nəqliyyat vasitələrinin hərəkəti dayandırılıb. Ölkəmizin şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın dövlət bayraqları endirilib.

Respublikamızın bütün şəhər və bölgələrində, xarici ölkələrdə anım mərasimləri keçirilib.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!





## Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Xocalı soyqırımı iki yüz ildən çox müddətdə təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. Bu qanlı faciədən 27 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalı şəhərinə hücuma keçmiş, bütün beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq normalarını pozaraq oraya zirehli texnika yeritmiş, şəhərin dinc əhalisinə misli görünməmiş qəddarlıqla divan tutmuşlar. Ermənistan silahlı qüvvələrinin mühasirəsində qalmış şəhər sakinlərindən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca öldürülmüş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür.

Xocalı soyqırımını törətməklə Ermənistan Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirmiş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal etmişdir. Bunun nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır. Dünya tarixinin ən qanlı faciələrindən biri sayılan Xocalı soyqırımı XX əsrdə erməni şovinizminin mahiyyətini aşkara çıxaran təkzibolunmaz tarixi gerçəklikdir.

BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa Şurası Parlament Assambleyasının və eləcə də digər beynəlxalq qurumların qərarlarına baxmayaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bu günədək beynəlxalq hüququn normaları və prinsipləri, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapmamışdır.

"Xocalıya ədalət!" kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımla bağlı müvafiq qərarlar qəbul edilsə də, bəşəriyyət əleyhinə bu cür ağır cinayətə beynəlxalq miqyasda hələ hüquqi qiymət verilməmişdir.

2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusu torpaqlarımızın bir qismini işğaldan azad etmiş, uğurlu Naxçıvan əməliyyatı ilə 11 min hektar ərazi nəzarətimizə keçmişdir. Ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün bizim kifayət qədər hərbi gücümüz, iqtisadi potensialımız və siyasi iradəmiz vardır. Mövcud status-kvo qəbuledilməzdir və Ermənistanın işğalçı qüvvələrinin torpaqlarımızdan çıxarılması tələbi daim gündəmdədir.

Azərbaycan xalqı və dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır.

Xocalı faciəsinin iyirmi yeddinci ildönümü ərəfəsində şəhidlərin xatirəsini dərin hüznlə yad edərək və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Xocalı soyqırımının iyirmi yeddinci ildönümü ilə bağlı tədbirlər planını hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 5 fevral 2019-cu il*
*N 930*

# Xocalı soyqırımının 27-ci ildönümü ədliyyə orqanlarında yad edilib






**İki yüz ildən çox müddətdə təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsi olan Xocalı faciəsindən 27 il ötür.**

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalı şəhərinə hücuma keçib, bütün beynəlxalq hüquq normalarını pozaraq, oraya zirehli texnika yeridib, şəhərin dinc əhalisinə misli görünməmiş qəddarlıqla divan tutublar. Bu qanlı qırğın zamanı yüzlərlə insan qətlə yetirilib və ağır yaralanıb, mindən çoxu girov götürülüb.




Soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti tərəfindən xüsusi Sərəncam imzalanıb, ön sırasında dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın olduqları ümumxalq yürüşü keçirilib. Paytaxtın Azadlıq meydanından başlayan on minlərlə insanın qatıldığı yürüşün iştirakçıları, o cümlədən ədliyyə işçiləri Xətai rayonunda Xocalı soyqırımı qurbanlarının abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad ediblər.

Ədliyyə Nazirliyində və struktur qurumlarda keçirilmiş anım tədbirlərində Xocalı soyqırımının sülh və bəşəriyyət əleyhinə yönələn əməl olduğu və ən ağır beynəlxalq cinayət sayıldığı bildirilib, bu qanlı hadisəyə ümummilli lider Heydər Əliyevin hakimiy-






yətə qayıdışından sonra siyasi-hüquqi qiymət verildiyi vurğulanıb.

Yığıncaqlarda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu kütləvi qırğının acı həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, dünya birliyi tərəfindən soyqırımı aktı kimi tanınması üzrə mühüm addımların atıldığı, Heydər Əliyev Fondunun təşəbbüsü ilə məqsədyönlü və ardıcıl tədbirlərin keçirildiyi, bu istiqamətdə "Xocalıya ədalət!" kampaniyasının önəmi xüsusilə qeyd edilib.

Nazirlikdə Xocalı soyqırımından bəhs edən müxtəlif dillərdə çap olunmuş nəşrlər,



habelə kinozalda filmlər, foto və video materiallardan ibarət slaydlar nümayiş etdirilib, Ədliyyə Akademiyasında "Sülh və insanlıq əleyhinə cinayət törətmiş şəxslərin cəzalandırılması məsələləri" mövzusunda dəyirmi masa keçirilib.



# Milli Məclisdə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə dinlənilib

**Fevralın 12-də Milli Məclisin növbəti plenar iclası keçirilib.**

Milli Məclisin sədri Oqtay Əsədov gündəliyi təqdim edib. Bildirib ki, iclasın gündəliyinə 32 məsələ daxildir. Cari məsələlərin müzakirəsindən sonra gündəlikdəki məsələlərə baxılıb.

Əvvəlcə ədliyyə nazirinin müavini Vilayət Zahirov bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə ilə çıxış edib. (Çıxışın mətni jurnalımızın bu sayında oxucularımızın diqqətinə təqdim olunur).

Sonra regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə illik məruzəyə dair fikirlərini açıqlayıb. Müzakirələr zamanı çıxış edən deputatlar illik məruzəni və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2018-ci ildə gördüyü işləri müsbət dəyərləndiriblər.

İclasda bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi qəbul edilib.

Daha sonra bir sıra qanun layihələri təqdim olunur və onlar səsə qoyularaq qəbul edilib. Bununla da Milli Məclis işini başa çatdırıb.










# Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə (2018-ci il üzrə)

## *Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Vilayət Zahirovun Milli Məclisdə çıxışı*

**Hörmətli cənab sədr!**

**Hörmətli deputatlar!**

Azərbaycan Respublikası Konstitusiyasının, "Yerli özünüidarəetmə haqqında" Avropa Xartiyasının müddəaları nəzərə alınmaqla "Bələdiyyələrin fəaliyyətinə İnzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə müvafiq olaraq "Bələdiyyələrin fəaliyyətinə İnzibati nəzarətlə bağlı (2018-ci il üzrə) illik məruzə" diqqətinizə təqdim olunur.

Yola saldığımız 2018-ci il ölkəmiz üçün çox uğurlu il olmuşdur. Ötən il bir çox ictimai-siyasi, tarixi hadisələrlə, iqtisadiyyatda davamlı inkişaf, tərəqqi ilə yadda qalmışdır. 2018-ci il aprelin 11-də şəffaf və demokratik şəraitdə keçirilmiş prezident seçkilərində cənab İlham Əliyevin parlaq qələbə qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti

seçilməsi xalqımızın ulu öndər Heydər Əliyevin siyasi kursuna yüksək inamını və etimadını, iqtidarla xalqın birliyini nümayiş etdirdi. Ötən il ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi, Azərbaycan Parlamentinin, bir çox dövlət qurumlarının, o cümlədən Azərbaycan Ədliyyəsinin 100 illiyi də yaddaqalan tarixi hadisələrdəndir.

Dünyada və bölgəmizdə gedən proseslərdən, çətin və mürəkkəb geosiyasi şəraitdən asılı olmayaraq Azərbaycan uğurla inkişaf etmiş, ictimai-siyasi sabitlik təmin edilmiş, iqtisadiyyatda tərəqqi davamlı olmuş, bir sıra beynəlxalq və yerli əhəmiyyətli mühüm infrastruktur layihələri icra edilmiş, ölkəmiz bir çox möhtəşəm tədbirlərə ev sahibliyi etmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, Dünya Bankının "Doing business 2019" hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış və dünyanın 10 ən islahatçı dövləti sırasına daxil edilmişdir. Əldə olunan bu böyük uğurlar ölkə Prezidenti cənab İlham Əliyevin davamlı olaraq həyata keçirdiyi düşünülmüş, məqsədyönlü siyasətinin və yorulmaz fəaliyyətinin nəticəsidir.

Ölkəmizdə qanunçuluğun möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının qorunması, idarəetmə sistemində səmərililiyin artırılması istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Dövlət idarəçiliyində öz yeri olan bələdiyyələrin inkişafı məsələləri də daim diqqət mərkəzində saxlanılaraq yerli özünüidarənin təkmilləşdirilməsi üçün bir sıra qanunlara dəyişiklik edilmiş, yeni normativ hüquqi aktlar qəbul olunmuş, bələdiyyələrin işinin təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilmişdir. Belə ki, "Bələdiyyələrin su təsərrüfatı haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", "Bələdiyyələrin statusu haqqında", "Torpaq islahatı haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunlara, Torpaq Məcəlləsinə və bir sıra başqa qanunvericilik aktlarına zəruri dəyişikliklər edilmişdir.

2018-ci il 13 fevral tarixində "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanuna edilmiş dəyişikliyə uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 26 sentyabr tarixli Qərarı ilə "Bələdiyyələrin yazılı və ya elektron sorğuları əsasında daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının verilməsi qaydası və bununla bağlı ödənişin miqdarı" təsdiq olunmuşdur. Bu qaydalar vergiyə cəlb edilən daşınmaz əmlak və onun mülkiyyətçiləri barədə bələdiyyələrin məlumatlar almaq imkanını reallaşdıraraq əmlak vergisi ödəyicilərinin uçotunun aparılmasında və verginin toplanması işində onların imkanlarını artırmışdır.

"Məşğulluq haqqında" 2018-ci il 29 iyun tarixli Qanunda məşğulluq sahəsində yerli özünüidarə orqanlarının iştirakı ilə bağlı məsələlər də tənzimlənərək bələdiyyələr üçün bir sıra hüquq və vəzifələr müəyyən edilmişdir. Belə ki, bələdiyyələrə işaxtaran və işsiz şəxslər üçün haqqı ödənilən ictimai işlərin təşkil edilməsi, yerli sosial müdafiə və sosial inkişaf proqramlarında əhalinin məşğulluğuna kömək göstərilməsi ilə bağlı əlavə təminatları nəzərdə tutan hüquqlar verilmiş, ailə kəndli təsərrüfatlarının uçota alınması və bununla bağlı müvafiq orqana məlumat verilməsinə dair bələdiyyələrin üzərinə vəzifələr qoyulmuşdur.

Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli Qanunu ilə "Bələdiyyələrin statusu haqqında" Qanuna edilmiş dəyişikliklə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli Qərarı ilə "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları" təsdiq edilmişdir. Qərara görə, yerli icra hakimiyyəti orqanları qəbiristanlıqları aidiyyəti bələdiyyələrə təhvil verməlidirlər. Bu işlərin qanunauyğun və vaxtında yerinə yetirilməsinə metodik kömək məqsədi ilə bələdiyyələrə müvafiq tövsiyələr verilmişdir.

Ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planında nəzərdə tutulan "Bələdiyyələrin kəndin sosial-iqtisadi in-




kişafı ilə bağlı öhdəliklərinin artırılması"na dair tədbirin icrası ilə bağlı bir sıra maarifçilik tədbirləri həyata keçirilmiş, kəndin inkişaf modelinin yaradılması məqsədi ilə 7 pilot bələdiyyə seçilmiş, İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, aidiyyəti yerli icra hakimiyyəti orqanları və bələdiyyələrin təklifləri öyrənilərək onların nümayəndələrinin və ekspertlərin iştirakı ilə keçirilən iclasda zəruri qərarlar və İşçi qrupunun 2019-cu il üzrə İş planı təsdiq edilmişdİr.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 819 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın Tədbirlər Planında Ədliyyə Nazirliyi qarşısında yerli özünüidarəetmə orqanlarının kadr potensialının gücləndirilməsi, yerli özünüidarəetmə orqanlarının aparatlarında çalışan işçilərin Ədliyyə Akademiyasında kurslara, treninqlərə və təlimlərə cəlb edilməsi, xarici ölkələrin yerli özünüidarəetmə orqanları ilə beynəlxalq təcrübə mübadiləsinin təşkil edilməsi ilə bağlı vəzifələr müəyyən edilmişdir.

Yerli özünüidarənin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər bələdiyyələrin imkanlarını genişləndirmiş, onların inkişafı üçün daha əlverişli şərait yaratmışdır. Bələdiyyələrin çoxu yerli əhalinin maraqlarını təmin etmək üçün sosial-iqtisadi problemlərin həllində fəal iştirak etmiş, təmir-abadlıq işləri görmüş, qanunla onlara verilən maliyyə potensialını artırmağa çalışmışlar.

Yerli özünüidarəetmə orqanlarının qəbul etdikləri aktların Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğunluğunun və bütövlükdə bələdiyyələrin işində qanunçuluğun təmin edilməsi ilə bağlı zəruri tədbirlər görülmüşdür. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin yaxşılaşdırılması məqsədi ilə bu sahədə görülən işlər təhlil olunaraq Ədliyyə Nazirliyinin Kollegiyasında müzakirə edilmiş, mövcud çatışmazlıqların aradan qaldırılması, qarşıya çıxan problemlərin həll edilməsi üçün tapşırıqlar verilmiş və onların icrası təmin olunmuşdur.

Hesabat dövründə inzibati



nəzarət qaydasında baxılması üçün Ədliyyə Nazirliyinə 72535 bələdiyyə aktı (o cümlədən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə 2077 akt) daxil olmuşdur (ötən illə müqayisədə 12 % çox). Aparılan hüquqi ekspertizanın nəticəsi üzrə 69775 (96 %) akt qanunvericiliyə uyğun hesab edilmiş, normativ hüquqi aktlara uyğun olmayan 2403 aktın dəyişdirilməsi və ya ləğv edilməsi üçün aidiyyəti bələdiyyələrə təkliflər verilmişdir (ötən illə müqayisədə 21,5% çox). Bu təkliflər əsasında bələdiyyələr tərəfindən 979 akt ləğv edilmiş, 1031 akt dəyişdirilmişdir. Bələdiyyələr tərəfindən təmin olunmayan təkliflər üzrə aktların dəyişdirilməsi və ya ləğv edilməsi ilə bağlı məhkəmələrdə 9 iddia qaldırılmışdır. Onlardan 4-ü məhkəmə tərəfindən təmin edilərək bələdiyyə aktları ləğv edilmiş, 5-i isə baxılmaqdadır.

İl ərzində 5921 ha torpaq sahəsinin qanunsuz verilməsinin qarşısı alınmışdır (ötən illə müqayisədə 2,2 dəfə çox).

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsində nəzərdə tutulmuş bələdiyyə aktlarının vaxtında təqdim edilməməsinə görə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 549.2-ci maddəsinə əsasən bələdiyyələrin 143 vəzifəli şəxsləri barəsində inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilmişdir (ötən illə müqayisədə 46 % çox).

2018-ci ildə Ədliyyə Nazirliyinə bələdiyyələrin fəaliyyəti ilə bağlı daxil olmuş 2247 müraciətdən 1988-nə qanunvericiliyin tələblərinə uyğun olaraq baxılmış, onlardan 82-si təmin edilmişdir (ötən illə müqayisədə 62 % çox).

Yerli özünüidarəetmə sahəsində əldə olunmuş tərəqqiyə baxmayaraq, bir sıra bələdiyyələrin işində nöqsanlara və qanun pozuntularına yol verilmişdir. İnzibati nəzarət icraatı qaydasında aparılmış 26 araşdırmada cinayət əməlinin əlamətləri aşkar edildiyindən toplanmış materiallar hüquqi qiymət verilməsi üçün prokurorluq orqanlarına göndərilmişdir. Həmin materiallardan 18-i üzrə cinayət işi başlanılmış, digərləri isə baxılmaqdadır. Onlardan Quba rayonu Quba bələdiyyəsinin,

İmişli rayonu Yalavac, Biləsuvar rayonu Xırmandalı, Hacıqabul rayonu Hacıqabul, Bərdə rayonu Samuxlu, Ağcabədi rayonu Kürdlər, Qazax rayonu Qazax, Balakən rayonu Balakən, Qabaqçöl, Xızı rayonu Xızı, Bakı şəhəri Sabunçu rayonu Bilgəh və Kürdəmir rayonu Sığırlı bələdiyyələrinin vəzifəli şəxsləri barəsində müvafiq maddələr üzrə cinayət işi başlanılmışdır.

Bələdiyyələrin fəaliyyətində aşkar edilmiş hüquq pozuntularının təhlili göstərir ki, həyata keçirilən tədbirlərə baxmayaraq, bir sıra xarakterik nöqsanlar, o cümlədən torpaq və maliyyə qanunvericiliyinin pozulması, bələdiyyə iclasının səlahiyyətlərinə aid məsələlər üzrə təkbaşına qərarlar qəbul edilməsi hallarına hələ də yol verilir. Törədilmiş cinayət əməlləri də daha çox belə pozuntularla bağlı olmuşdur.

Yerli vergi və ödənişlərin uçotu və yığımı yaxşılaşsa da, bu sahədə problemlər qalmaqdadır. Mədən vergisi ödəyicilərinin, mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərin uçotdan yayınmasına da yol verilir.

Ölkə bələdiyyələrinin çoxu yerli sosial-iqtisadi problemlərin həllində fəal iştirak etsələr də, onların gördüyü işlər barədə ictimaiyyətə geniş məlumat verilmir. Bələdiyyələrin daha aktiv fəaliyyət göstərməsi üçün yaxşı iş təcrübəsinin mətbuatda işıqlandırılması və yayılması önəmli olduğundan, bələdiyyələrin milli assosiasiyalarına bu sahəyə diqqəti artırmaları barədə müraciət olunmuşdur.

Bələdiyyələrin sahibkarlıq fəaliyyətini həyata keçirməsi dövlət siyasəti ilə təşviq olunmasına, normativ hüquqi bazanın formalaşmasına baxmayaraq, bu sahədə təşəbbüskarlıq yetərli deyil. Təəssüf doğurucu haldır ki, bələdiyyələrin təsis etdikləri kommersiya hüquqi şəxslərinin böyük bir qismi fəaliyyət göstərmir, işləyənlərin bəziləri isə bələdiyyə büdcəsinə mənfəət vergisi ödəmirlər. Belə halların qarşısının alınması üçün tədbirlər görülür.

Bələdiyyələrin fəaliyyətinə metodik kömək göstərilməsi məqsədi ilə maarifçilik tədbirləri davam etdirilmişdir.

Hesabat dövründə Ədliyyə Akademiyasında 20 tədris kursu (695 dinləyici), Dövlət İdarəçilik Akademiyasında isə 1 kurs (25 dinləyici) təşkil edilmişdir. Göstərilənlərlə yanaşı, Ədliyyə Nazirliyi tərəfindən 210 seminar və təlim keçirilmiş və bu tədbirlərdə 8133 nəfər bələdiyyə üzvü və qulluqçusu iştirak etmişlər. Maarifçilik tədbirləri əsasən aşağıdakı mövzular üzrə olmuşdur:

- Bələdiyyə aktlarının qəbulu və icrası;
- Bələdiyyə torpaqlarının idarə olunmasında qanunçuluğun təmin edilməsi;
- Bələdiyyələrdə vergi işinin səmərəliliyinin artırılması;
- Strateji Yol Xəritəsinin icrasında bələdiyyələrin iştirakı;
- Bələdiyyələrdə və bələdiyyə müəssisələrində arxiv işinin təşkili;
- Bələdiyyə qulluğuna qəbul prosesində şəffaflığın təmin edilməsi və s.

Maarifçilik tədbirlərinin keçirilməsində dövlət orqanları ilə yanaşı, beynəlxalq qurumlarla da əməkdaşlıq edilmişdir. Belə ki, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə əməkdaşlıq çərçivəsində bələdiyyə üzvləri və qulluqçuları üçün Nazirliyin regional ədliyyə idarələri ilə birgə "Bələdiyyə büdcəsinin tərtibində iqtisadi kodların tətbiqi" mövzusunda 10 regional təlim keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Muxtar Respublika bələdiyyələrinin maarifləndirilməsi üçün keçirilmiş 14 seminarda 945 bələdiyyə üzvü və qulluqçusu iştirak etmişdir.

Bundan başqa, Azərbaycan bələdiyyələrinin milli assosiasiyalarının təşkilatçılığı ilə 27 bələdiyyə sədri ayrı-ayrı qruplarla Türkiyə, Latviya, Litva, Bosniya və Herseqovinada yerli özünüidarə orqanlarının təcrübəsi ilə yaxından tanış olmuşlar.

Ümumilikdə, il ərzində 249 maarifçilik tədbirləri keçirilmiş və bu tədbirlərdə 9825 bələdiyyə üzvü və qulluqçusu iştirak etmişdir.

İl ərzində bələdiyyələr üçün 15 metodik vəsait və tövsiyələr hazırlanaraq istifadə üçün bələdiyyələrə göndərilmişdir. Onlardan bəzilərini, "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair

Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulan aidiyyəti tədbirlərin icrası", "Torpaqların münbitliyinin və əkin yerlərinin mühafizəsi", "Yerli özünüidarə sahəsində yeni normativ hüquqi aktlar", "Bələdiyyələrin normativ xarakterli aktlarının hazırlanmasına dair metodik göstərişlər", "Yerli büdcənin tərtibi", "Fərdi yaşayış evlərinin tikintisi üçün ayrılmış torpaq sahələrinin təyinatının pozulması hallarının qarşısının alınması", "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları haqqında" və digərlərini qeyd etmək olar.

Habelə, "Yerli özünüidarə orqanlarının normativ aktlarının bülleteni"nin 4 nömrəsi nəşr edilmişdir.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planından irəli gələrək Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə birgə hazırlanmış "Yerli turizmin təşkilində bələdiyyələrin iştirakı" kitabı bələdiyyələrə təqdim olunmuş, Ədliyyə Nazirliyi kollegiyasının qərarına uyğun olaraq hazırlanmış "Sahibkarlığın inkişafında bələdiyyələrin iştirakı ilə bağlı qanunvericiliyə dair sənədlər toplusu" çap edilərək təqdimatı keçirilmişdir.

Ötən il bələdiyyələrin milli assosiasiyalarının da fəaliyyəti səmərəli olmuşdur. Assosiasiyaların bələdiyyələrin fəaliyyəti ilə bağlı məlumatların toplanması və sistemləşdirilməsi sahəsində gördüyü işlər diqqətəlayiqdir.

Assosiasiyaların nümayəndələri Milli Məclisin sessiyalarında və komitələrinin iclaslarında, yerli özünüidarə məsələləri üzrə qanun layihələrinin müzakirələrində iştirak etmiş, öz təklif və mülahizələrini bildirmişlər.

Azərbaycan Respublikası Milli Məclisinin Regional məsələlər Komitəsinin və Azərbaycan şəhər, qəsəbə və kənd bələdiyyələrinin milli assosiasiyalarının təşkilatçılığı ilə 11 oktyabr 2018-ci il tarixdə Sumqayıt şəhərində "Yerli demokratiyanın inkişafı naminə vətəndaşların iştirakı, maarifləndirilməsi və öhdəlikləri" mövzusunda keçirilən konfransda Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin tövsiyəsinə əsasən hər il keçirilən "Yerli demokratiya həftəsi" ilə bağlı əvvəlki illərdə qazanılmış təcrübə, uğurlar geniş müzakirə edilərək yerli demokratiya həftəsinin bələdiyyə idarəçiliyində önəmi vurğulanmışdır. Müzakirələrin nəticəsi olaraq milli assosiasiyaların təşəbbüsü ilə oktyabrın 15-dən 21-dək "Azərbaycanda yerli demokratiya həftəsi" təşkil edilmişdir.

Yerli özünüidarə sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsinə xüsusi önəm verilərək 2018-ci ildə də Avropa Şurasının, Avropa İttifaqının aidiyyəti qurumlarının, Dünya Bankının Avropa və Mərkəzi Asiya regional idarəsi və başqa beynəlxalq təşkilatlarla əməkdaşlıq davam etdirilmişdir. Belə ki, Dünya Bankının Üçüncü Kənd İnvestisiyaları Layihəsi çərçivəsində "Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulan tapşırıqla bağlı yaradılan pilot bələdiyyələrlə əməkdaşlıq məsələləri müzakirə edilmiş, yerli özünüidarəetmə fəaliyyəti və bu sahədə qadınların iştirakına dair Azərbaycanın təcrübəsi ilə tanış olmaq məqsədi ilə ölkəmizdə səfərdə olan Fələstin Dövlətinin Yerli Hökumət Nazirliyinin nümayəndə heyəti ilə görüş keçirilmiş, Avropa İttifaqının İqtisadi İnkişaf Naminə Merlər layihəsinin nümayəndə heyəti ilə əməkdaşlığın perspektivləri və digər məsələlər müzakirə edilmişdir.

**Hörmətli deputatlar!**

Ötən il Milli Məclisin plenar iclasında, Regional məsələlər Komitəsinin ötən il və bu il yanvarın 25-də keçirilmiş iclaslarında illik məruzənin geniş müzakirəsi keçirilmiş, deputatlar tərəfindən bir sıra məsələlər qaldırılmış və təkliflər irəli sürülmüşdür. Qeyd etmək istəyirəm ki, qaldırılan hər bir məsələ diqqətlə öyrənilir, təhlil olunur və nəzərə alınır. Gələcək fəaliyyətdə də nəzərə alınacaqdır.

Yerli özünüidarəetmə orqanlarının işinin təkmilləşdirilməsi, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi, bələdiyyə üzvləri və qulluqçularının maarifləndirilməsi üzrə işlər davam etdirilir.

*Diqqətinizə görə təşəkkür edirəm.*




# Ədliyyə fəaliyyəti dövlət başçısının tapşırıqlarına uyğun təkmilləşir

**Fevralın 13-də Ədliyyə Nazirliyinin geniş kollegiya iclası keçirilib. Kollegiyada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin yekunlarına dair iclasında verdiyi tapşırıqlardan, həmçinin dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsinə dair 17.01.2019-cu il tarixli Fərmanından və digər göstərişlərindən irəli gələn ədliyyə orqanlarının vəzifələri müzakirə olunub.**

Ədliyyə naziri Fikrət Məmmədov ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirildiyini, Azərbaycanın 2018-ci ildə sürətli tərəqqisinin, sabitliyinin və təhlükəsizliyinin təmin edildiyini, qarşıya qoyulan bütün strateji inkişaf hədəflərinə nail olunduğunu vurğulayıb.

Qeyd olunub ki, aparılan genişmiqyaslı islahatlara uyğun olaraq dövlət orqanlarının fəaliyyətinin müasirləşdirilməsi, büdcə vəsaitlərinə qənaət edilməklə idarəetmənin təmin edilməsi üzrə ardıcıl tədbirlər görülür. Azərbaycan ədliyyəsi də islahatlar aparılmaqla təkmilləşir, vətəndaşlara daha operativ, rahat və şəffaf xidmətlərin göstərilməsi, əlçatanlığın asanlaşdırılması məqsədilə müasir texnologiyaların və innovasiyaların tətbiqi genişləndirilir.

Kollegiyada ötən il ədliyyə orqanları tərəfindən görülmüş işlər əyani təqdimat keçirilməklə ətraflı təhlil edilib.

Məlumat verilib ki, qanunvericilik sahəsində bilavasitə nazirlik tərəfindən 2018-ci ildə əvvəlki illə müqayisədə 30% çox - 1.800-ə yaxın normativ hüquqi akt layihəsi hazırlanıb, 3.300-dən çox akt hüquqi ekspertizadan keçirilib. Əhali üçün daim açıq olan Hüquqi Aktların Dövlət Reyestrinin elektron saytına (www.huquqiaktlar.gov.az) və milli qanunvericiliyin elektron bazasına (www.e-qanun.az) ümumilikdə 6.200-ə yaxın sənəd daxil edi-



lib və il ərzində həmin informasiya resurslarına başçəkmələrin sayı 65% artaraq 1,3 milyonu ötüb.

Şəffaflığın artırılması, açıq hökumət prinsiplərinin təşviqi məqsədilə nazirlik tərəfindən aparılan 10 internet saytın interaktiv rejimdə fəaliyyəti təmin olunub, vətəndaşlara göstərilən 30-dan çox elektron xidmətlərdən istifadənin sayı artaraq 5 milyonu ötüb.

Dövlətimizin başçısının vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları diqqətdə saxlanılaraq 12.800-ə yaxın vətəndaş nazirlikdə, bölgələrdə və "virtual qəbul" məntəqələri vasitəsilə qəbul edilib, qaldırılan məsələlərlə bağlı zəruri tədbirlər görülüb.

Əhalinin daha çox təmasda olduğu notariat ofislərində əvvəlki illə müqayisədə təxminən 14% çox - 4.4 milyondan artıq notariat hərəkəti rəsmiləşdirilib, həmçinin vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı 317 minə yaxın əməliyyat aparılıb və bu əməliyyatlarla bağlı 51 milyon manata yaxın dövlət rüsumu və digər ödənişlər alınıb. Daşınmaz əmlakla əlaqədar müqavilələr üzrə notariuslar tərəfindən təxminən 50 milyon manata yaxın vergi dövlət büdcəsinə köçürülüb ki, bu da əvvəlki illə müqayisədə 26% çoxdur.

Eyni zamanda "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən ədliyyə qurumları tərəfindən rəsmiləşdirilən əməliyyatlar 2018-ci ildə bu mərkəzlərdə verilmiş hazır sənədlərin 48%-ni təşkil edib.

Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə 15.11.2018-ci ildə "Notariat haqqında" Qanuna edilmiş əsaslı dəyişikliklər bu sahədə fəaliyyətin müasirləşdirilməsinə, ən yeni texnologiyaların və innovasiyaların tətbiqinə imkan yaradıb. Vətəndaşlara səyyar və məsafədən notariat xidmətlərinin göstərilməsi məqsədilə xüsusi notariat çantası, elektron ədliyyə köşkü, dünya təcrübəsində rast gəlinməyən və Azərbaycan məhsulu olan, notariat ofisləri və hərəkətləri ilə bağlı zəruri məlumatları vahid mənbədən əldə etməyə imkan verən mobil notariat proqramı hazırlanıb. Tətbiq olunan bu innovasiyalar ötən ilin sonunda Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin yeni binasının açılışı zamanı dövlət başçısına nümayiş etdirilib.

Qeyd olunub ki, vətəndaş cəmiyyətinin inkişafında mühüm rol oynayan və nazirlik tərəfindən dövlət qeydiyyatına alınmış qeyri-kommersiya təşkilatlarının ölkədə ümumi sayı 4.350-ə, KİV-lərin sayı isə 5.250-ə çatıb.

Nazirliyin mühüm fəaliyyət










istiqamətlərindən olan məhkəmə qərarlarının icrası sahəsində iş həcmi əhəmiyyətli dərəcədə artaraq 2018-ci ildə icra sənədlərinin sayı 873 minə çatıb, onlardan 460 minə yaxınının icrası təmin edilib, qalan işlərin icrası üzrə tədbirlər davam etdirilir. Görülən tədbirlər nəticəsində hüquqi və fiziki şəxslərə əvvəlki illə müqayisədə 2 dəfədən artıq - 1 milyard 150 milyon manatdan çox vəsait ödətdirilib.

Məhkəmə qərarlarının icrasından qərəzli boyun qaçıran 4.640 nəfər inzibati məsuliyyətə cəlb olunub, 446 şəxs barəsində cinayət işi başlanılıb.

Ölkə başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamına uyğun olaraq Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərlə əlaqədar məhkəmələr tərəfindən 6.000-ə yaxın məhkum haqqında sənədlərə baxılaraq təmin edilib, 4.200-dən çox şəxs cəzadan tamamilə azad olunub və ya cəza müddətləri azaldılıb.

Nazirlik tərəfindən ədalət mühakiməsi əleyhinə, o cümlədən məhkəmə qərarlarının icra olunmaması və digər cinayətlərlə bağlı 673 iş üzrə ibtidai istintaq tamamlanıb, bu zaman fiziki və hüquqi şəxslərə vurulmuş 2 milyon manata qədər çox ziyan istintaqın gedişində ödətdirilib.

Məhkəmə ekspertizası mərkəzinə il ərzində 41 ekspert ixtisası üzrə 36 minə yaxın iş daxil olub, bu zaman ekspertlər 805 mindən çox suala cavab verməklə qaldırılmış məsələlərin 99,7%-ni həll ediblər.

Dövlət gənclər siyasətinə uyğun olaraq yeni nəsil kadr korpusunun formalaşdırılması üzrə tədbirlər davam etdirilib, açıq müsabiqələr nəticəsində əksəriyyətini gənclər təşkil edən 267 nəfər ədliyyə orqanlarına qulluğa qəbul olunub, bütövlükdə isə ötən il ərzində 576 vakant ştat vahidi komplektləşdirilib. Eyni zamanda dövlət başçısının təşəbbüsü ilə yaradılmış könüllülər institutunun təşviqinə xüsusi diqqət yetirilib, bu sahədə müvafiq ali təhsil müəssisələri və tələbə-gənclər təşkilatları, eləcə də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə səmərəli əlaqələr qurulub və 1200-ə yaxın könüllü ədliyyə və məhkəmə fəaliyyətinə cəlb olunub, onların bir qismi üçün Ədliyyə Akademiyasında xüsusi təlimlər keçirilib.

Kollegiyada həmçinin bildirilib ki, 2018-ci ildə nazirliyin beynəlxalq hüquq əməkdaşlığının genişləndirilməsi üzrə tədbirlər görülüb, Türkiyə, Belarus, Serbiya və Əlcəzairin ədliyyə nazirləri ölkəmizə səfərlər edib, hüquqi sahədə mühüm sənədlər imzalanıb, habelə nümayəndə heyətimiz Avstriya, Xorvatiya və Malayziyada mötəbər beynəlxalq tədbirlərdə iştirak edib.

Tədbirə dəvət olunmuş QHT nümayəndələri çıxış edərək ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirləri yaxından izlədiklərini, bu sahədə nailiyyətlərin və tətbiq olunan innovasiyaların cəmiyyətdə daha geniş təbliğ olunmasının əhəmiyyətini qeyd edib, Ədliyyə Nazirliyi tərəfindən şəffaflığa, ictimai iştirakçılığa hər zaman xüsusi önəm verilərək vətəndaş cəmiyyəti nümayəndələrinin ədliyyənin ayrı-ayrı fəaliyyət istiqamətlərinə cəlb olunmasını və qarşılıqlı fəaliyyətin səmərəliliyinin artırılmasını vurğulayıblar.

İclasda görülmüş işlərlə yanaşı, ədliyyə fəaliyyətində mövcud nöqsan və çatışmazlıqlar müzakirə edilib, işin dövlət başçısının tələbləri səviyyəsində müasirləşdirilməsi, innovativ metodlar tətbiq edilməklə səmərəli təşkili, o cümlədən rəqəmsal idarəçiliyin tətbiqi, qanunvericiliyin təkmilləşdirilməsi, strukturun optimallaşdırılması ilə bağlı və digər konkret tapşırıqlar verilib.

Eyni zamanda, dövlət başçısının 2018-ci il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı nazirliyin üzərinə mühüm vəzifələrin düşdüyü qeyd edilərək, ədliyyənin gələcək inkişafında "yol xəritəsi" olan bu mühüm sənədin vaxtında və mütəşəkkil icrasının vacibliyi vurğulanıb.

Ölkə Prezidentinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, korrupsiyanın və digər neqativ halların qarşısının alınması, şəffaflığın və dürüstlüyün tam təmin olunması barədə tələbləri xüsusilə diqqətə çatdırılaraq etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaş məmnunluğunun yüksəldilməsi ilə bağlı və digər konkret göstərişlər verilib.

Sonda ədliyyə fəaliyyətini tənzimləyən bəzi normativ hüquqi akt layihələrinə baxılıb, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

# Məhkəmə-Hüquq Şurasının məlumatı

**Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. İclasda məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ötən il görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib.**

Çıxış edən Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov ötən il dahi öndər Heydər Əliyevin dövlət inkişafı kursunun Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirildiyini, Azərbaycanda sabitlik və hərtərəfli tərəqqinin təmin olunduğunu, dövlətimizin iqtisadi potensialının yüksəldiyini, o cümlədən Dünya Bankının "Doing Business 2019" hesabatında 32 pillə irəliləyərək dünyada 25-ci yer tutduğunu və ən islahatçı 10 dövlət sırasında olduğunu diqqətə çatdırıb.

Qeyd olunub ki, ötən il məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması və işin keyfiyyətinin yüksəldilməsi üzrə ardıcıl tədbirlər görülüb.

Dövlət başçısının tapşırığı ilə yaradılmış "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi məqsədilə qanunvericiliyə edilmiş dəyişikliklər elektron sənəd dövriyyəsinin təmin edilməsinə, o cümlədən iddia ərizələrinin onlayn verilməsinə, məhkəmə rüsumlarının elektron ödənilməsinə, iş üzrə məlumat və qərarların alınmasının elektron həyata keçirilməsinə, məhkəmə iclaslarının audio-video yazılışının aparılmasına şərait yaradıb. Bu məqsədlə ölkə üzrə mövcud olan 111 məhkəmədən 60%-i müasir İKT ilə təchiz edilib, bu sahədə işin tam yekunlaşması üzrə tədbirlər görülür.

Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə cəza siyasətinin humanistləşdirilməsi, o cümlədən bəzi əməllərin dekriminallaşdırılması ilə əlaqədar məhkəmələr tərəfindən 6 minə yaxın məhkum haqqında sənədlərə baxılaraq təmin edilib. 4200-dən çox şəxs cəzadan azad olunub, yaxud cəza müddətləri azaldılıb. Həbsə alternativ cəzaların tətbiqinin genişləndirilməsi məqsədilə elektron qolbaqların tətbiqinə başlanılıb və artıq 900-dən çox məhkuma elektron qolbaq tətbiq edilib.

Hakimlərin tədrisinin əhəmiyyəti nəzərə alınaraq Ədliyyə Akademiyası ilə birgə təşkil olunan təlimlərdə bütün hakim korpusu əhatə olunub, Avropa Konvensiyasının tətbiqi və presedent hüququ ilə bağlı Məhkəmənin hakimi və təcrübəli ekspertlərin iştirakı ilə video-konfrans vasitəsilə distant təlimlərə başlanılıb.



Müasir məhkəmə infrastrukturunun yaradılması məqsədilə 2018-ci ildə Dünya Bankı ilə birgə layihələr çərçivəsində və dövlət büdcəsi hesabına Bakı şəhərinin Binəqədi və Zaqatala rayon məhkəmələri üçün yeni, müasir İKT-lərlə təchiz olunmuş məhkəmə binaları inşa edilərək istifadəyə verilib. Sumqayıt Məhkəmə Kompleksinin, Bakı şəhəri Suraxanı, habelə Masallı rayon məhkəmələri üçün hazırda yeni inzibati binaların inşası aparılır.

Ölkə Prezidenti tərəfindən Binəqədi rayon məhkəməsinin yeni binasının şəxsən açılışının həyata keçirilməsi məhkəmə hakimiyyətinə diqqət və dövlət qayğısının təzahürü olub.

Ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə mütərəqqi islahatlarımız nüfuzlu beynəlxalq təsisatlar tərəfindən təqdir edilib.

Eyni zamanda səlahiyyət müddəti başa çatan 80-dən çox hakimin fəaliyyəti ətraflı və prinsipial təhlillər aparılmaqla qiymətləndirilib, 16 nəfəri apellyasiya məhkəmələrinə irəli çəkilib, 61 nəfəri yenidən müxtəlif hakim vəzifəsinə təyin edilib. Yuxarı instansiya məhkəmələrində olan 30 vakansiya zəruri keyfiyyətlərə malik hakimlərlə tam komplektləşdirilib və apellyasiya məhkəmələrinin sədr müavini və kollegiya sədrləri təyin edilib.

Bununla yanaşı məhkəmələrin iş yükü üzrə ətraflı təhlillər aparılmaqla ehtiyatda olan 50 hakim ştatı birinci instansiya məhkəmələri üzrə tam paylanılıb. Hakimlərin obyektiv seçimi nəticəsində 800-dən çox namizəddən 108 nəfər hüquqşünas çoxmərhələli imtahanları, 1 il müddətində davam edən təlimləri və məhkəmələrdə, o cümlədən Türkiyədə və Avropa Məhkəməsində stajkeçməni uğurla başa vuraraq dövlət başçısı tərəfindən müxtəlif birinci instansiya məhkəmələrinin hakimi vəzifələrinə təyin olunub. Bununla da bütün hakim korpusunun 70%-dən çoxunu yeni, mütərəqqi qaydalarla seçilmiş hakimlər təşkil edib. Həmçinin, nəticədə məhkəmə sistemində mövcud vakansiyaların tam əksəriyyəti komplektləşib.

Həyata keçirilən qanunvericilik tədbirləri nəticəsində məhkəmələrdə baxılan işlərin sayı 20%-dək azalıb. Bununla yanaşı cari ildən əmr icraatları üzrə işlərə məhkəmədənkənar elektron qaydada baxılması, məhkəmə iclaslarının təyin edilməsi müddətlərinin dəqiqləşdirilməsi və təxirə salınması hallarının qanunla məhdudlaşdırılması, bəzi kateqoriya işlər üzrə sadələşdirilmiş icraatın təsbit olunması iş yükünün daha da azalmasına əsaslı zəmin yaradacaqdır.

Bütün bunlar məhkəmələrdə süründürməçilik hallarının qarşısının alınmasına, işlərə

vaxtında və keyfiyyətlə baxılmasına xidmət edəcəkdir.

İclasda qeyd edilib ki, görülmüş tədbirlərə baxmayaraq, məhkəmə fəaliyyətində yol verilən nöqsanlar, xüsusilə korrupsiya, süründürməçilik, vəzifədən sui-istifadə halları tam aradan qaldırılmamışdır.

Ölkə başçısının vətəndaşlara qayğılı münasibət göstərilməsi, korrupsiyanın yolverilməzliyi, bütün sahələrdə dürüstlüyün və şəffaflığın təmin edilməsi ilə bağlı tapşırıqlarını qeyd edən Şuranın sədri hakim adına və nüfuzuna xələl gətirən halların qarşısının qətiyyətlə alınması üzrə qarşıda duran vəzifələri vurğulayıb. Yuxarı instansiya məhkəmələrinin diqqəti yol verilən pozuntulara cəlb edilməklə belə hallara qarşı prinsipiallığın artırılması diqqətə çatdırılıb.

2019-cu ildə 100-dən çox hakimin, o cümlədən Ali Məhkəmənin 22, apellyasiya məhkəmələrinin 38, birinci instansiya məhkəmələrinin isə 42 hakiminin fəaliyyətinin qiymətləndirilməsinin nəzərdə tutulduğu qeyd edilərək, tələbkarlığın, xüsusilə məhkəmə sədrlərinin məsuliyyət hissinin artırılması üzrə konkret tapşırıqlar verilib. Bildirilib ki, ötən il vətəndaşların haqlı narazılığını doğuran pozuntulara görə Şura tərəfindən 14 hakimin fəaliyyəti qanunvericiliklə nəzərdə tutulmuş qaydada qeyri-məqbul qiymətləndirilməklə səlahiyyətlərinə xitam verilib, habelə 4 məhkəmə sədri aşağı işə keçirilib. 6 hakim intizam məsuliyyətinə cəlb edilib, 2 nəfərin tutduğu vəzifədən azad edilməsi, 1 nəfərin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi barədə qərarlar qəbul olunub.

Ümumiyyətlə isə Şuranın fəaliyyət göstərdiyi 2005-ci ildən hakimlər barədə 250-dən çox intizam icraatı başlanılıb, 122 hakim qanunvericiliklə nəzərdə tutulmuş müxtəlif əsaslarla, o cümlədən, 14 nəfər intizam qaydasında, 74 nəfər səlahiyyət müddəti bitdiyinə görə, 34 nəfər isə yaş həddinə çatması ilə əlaqədar səlahiyyət müddəti uzadılmayaraq məhkəmə sistemindən kənarlaşdırılıb.

Ötən ilin sonunda paytaxtda və bölgələrdə bütün məhkəmə sədrlərinin və hakimlərin iştirakı ilə geniş müşavirələr keçirilərək ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə tədbirlər, məhkəmə fəaliyyətində mövcud problemlər, yol verilən nöqsanlar və onları doğuran səbəblər ətraflı təhlil olunub, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi qəti şəkildə diqqətə çatdırılıb.

Məhkəmə-Hüquq Şurasının iclasında çıxış edən Ali Məhkəmənin sədri Ramiz Rzayev ölkə başçısının korrupsiyaya qarşı mübarizənin sərtləşdirilməsi və nəzarətin gücləndirilməsi barədə qəti tapşırıqlarının məhkəmə fəaliyyətinin təkmilləşdirilməsində əsas "yol xəritəsi" olduğunu vurğulayıb, bu sahədə əlavə mexanizmlərin müəyyən olunduğunu və vahid məhkəmə təcrübəsinin formalaşdırılmasının əhəmiyyətini qeyd edib, yol verilən pozuntulardan ciddi nəticələr çıxarılmasının zəruriliyini bildirib.

Həmçinin, Şurada qanunvericiliyin tələblərinin kobudcasına pozulmasına, süründürməçilik və digər nöqsanlara yol verdiklərinə görə Şabran rayon məhkəməsinin sədri Çingiz İsgəndərova, Bakı şəhəri Qaradağ rayon məhkəməsinin hakimi Teymur Qurbanova, Quba rayon məhkəməsinin hakimi İlqar Məmmədova, Abşeron rayon məhkəməsinin hakimi Sevinc Quliyevaya, Mingəçevir şəhər məhkəməsinin hakimi Ələkbər Hüseynova və Xaçmaz rayon məhkəməsinin hakimi Vladimir Ruvinova töhmət verilib, Abşeron rayon məhkəməsinin hakimi Vaqif Həsənova irad tutulub, bir neçə hakim barədə intizam icraatları başlanılıb.

Qanunvericiliyin tələblərinin kobudcasına pozulmasına və korrupsiyaya şərait yaradan hallara yol verilməsinə görə Sumqayıt şəhər məhkəməsinin hakimi İlyas Mahmudovun hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi, Gəncə şəhəri Kəpəz rayon məhkəməsinin hakimi Yaşar Həşimovun tutduğu vəzifədən azad olunaraq başqa işə keçirilməsi, habelə korrupsiyaya dair konkret faktların araşdırılıb hüquqi qiymət verilməsi üçün materialların Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərilməsi barədə qərar qəbul edilib.

# Azərbaycan və Belarus Ədliyyə nazirlikləri səmərəli əməkdaşlıq edir




Belarus Ədliyyə Nazirliyinin 100 illiyinə həsr olunmuş konfrans və təntənəli iclas





**Azərbaycan-Belarus dostluq və səmərəli əməkdaşlıq münasibətlərində hüquqi əlaqələr xüsusi yer tutur. Belə ki, iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair mühüm sazişlər imzalanaraq uğurla icra olunur, nümayəndə heyətlərinin mübadiləsi aparılır, birgə tədbirlər keçirilir. Ötən ilin noyabrında Belarusun ədliyyə naziri ölkəmizdə səfərdə olaraq Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransda iştirak edib, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.**

Əməkdaşlığın davamı olaraq respublikamızın ədliyyə naziri Fikrət Məmmədov belaruslu həmkarının dəvətinə əsasən Belarus Ədliyyə Nazirliyinin 100 illik yubileyinə həsr olunan beynəlxalq konfransda iştirak etmək üçün Minsk şəhərində səfərdə olub.

Rusiya, Tacikistan və Özbəkistanın ədliyyə orqanları rəhbərlərinin də iştirak etdiyi "Hüquqi dövlətin formalaşdırılmasında ədliyyə orqanları-

nın rolu" mövzusunda konfransın açılışında Belarusun ədliyyə naziri Oleq Slijevski, Belarus Prezidenti Administrasiyasının rəhbərliyi, Konstitusiya Məhkəməsinin sədri çıxış edib, konfransın hüquqi dövlətdə ədliyyə sisteminin inkişafına və yeni çağırışlara həsr olunduğunu bildirib, müsbət təcrübələrin mübadiləsi baxımından əhəmiyyətini qeyd ediblər.

Geniş məruzə ilə çıxış edən O.Slijevski Ədliyyə Nazirliyinin 100 illik tarixindən və inkişaf yolundan danışıb, həyata keçirilən islahatlar və yeniliklər barədə ətraflı məlumat verib, müxtəlif dövlətlərlə, o cümlədən Azərbaycanla səmərəli hüquqi əməkdaşlığı, ölkəmizin ASAN xidmət və digər müsbət təcrübəsindən bəhrələnildiyini qeyd edib.

Tədbirdə ölkəmizin ədliyyə naziri F.Məmmədov çıxış edərək yubiley münasibətilə təbriklərini ifadə edib, Azərbaycan və Belarus arasında ikitərəfli münasibətlərin inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun müstəsna rolunu vurğulayıb, ədliyyə orqanlarının da uğurla əməkdaşlıq etdiyini bildirib.

Həmçinin, ədliyyə və məhkəmə sahəsində aparılan və beynəlxalq aləmdə təqdir olunan islahatlar və innovasiyalar, o cümlədən elektron sistemlərin və xidmətlərin tətbiqini qeyd edib, ölkə Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamına əsasən cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər, o cümlədən azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında Probasiya xidmətinin fəaliyyəti, elektron nəzarət vasitələrinin tətbiqi barədə məlumat verib.


Azərbaycan və Belarus ədliyyə nazirlərinin görüşü

Çıxışda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələri, torpaqlarımızın Ermənistan tərəfindən 20%-nin işğalı və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktı iştirakçıların xüsusilə diqqətinə çatdırılıb.

Konfransda digər məruzələr dinlənilib, müzakirələr, faydalı fikir və təcrübə mübadiləsi aparılıb. Çıxış edənlər Belarus Ədliyyə Nazirliyinin səlahiyyət dairəsinə aid olan vəkillik və notariat sahəsində Azərbaycanın mütərəqqi islahatlarını təqdir ediblər.

Tədbir çərçivəsində Azərbaycan və Belarus ədliyyə nazirlərinin ikitərəfli görüşü olub. Görüşdə ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinin yüksək səviyyəsi vurğulanıb, qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi üçün geniş perspektivlərin olduğu bildirilib.

Respublikamıza səfərləri zamanı hərtərəfli tərəqqinin və intensiv islahatların aparılmasının şahidi olduğunu söyləyən Belarusun ədliyyə naziri Azərbaycanın ölkəmizin böyük uğurlar əldə etdiyini, hüquqi sahədə nailiyyətlərimizi ölkəsində tətbiq etmək niyyətində olduğunu qeyd edib.

Konfrans zamanı ölkəmizdə həyata keçirilən islahatlara və nailiyyətlərə böyük maraq göstərilərək yerli KİV nümayəndələri nazir F.Məmmədovdan müsahibə alıblar.

Yubiley tədbirləri çərçivəsində Belarus Milli Akademik Böyük Opera və Balet Teatrında Nazirliyin 100 illiyi münasibətilə təntənəli iclas keçirilib. Tədbirdə Belarus Prezidentinin ədliyyə orqanlarına təbrik müraciəti səsləndirilib, təltifetmə mərasimi olub, yubileyə həsr olunmuş xüsusi film nümayiş etdirilib, mədəni proqram və ziyafət təşkil edilib.

Tədbirlərdə, həmçinin Azərbaycanın Vəkillər Kollegiyasının rəhbərliyi təmsil olunub, ölkəmizin Belarusdakı səfiri Lətif Qəndilov iştirak edib.

## Belarus Ədliyyə Nazirliyinin 100 illik yubileyinə həsr olunmuş "Hüquqi dövlətin formalaşmasında ədliyyə orqanlarının rolu" mövzusunda beynəlxalq konfransda Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədovun çıxışının Azərbaycan dilinə tərcümə olunmuş mətni

**Minsk, Belarus, 8 fevral 2019-cu il**

**Hörmətli cənab nazir,**
**Hörmətli konfrans iştirakçıları,**

İlk öncə, cənab nazir, Sizi və bütün belaruslu həmkarlarımızı Belarus ədliyyə sisteminin 100 illik yubileyi münasibətilə öz adımdan və Azərbaycan Ədliyyə Nazirliyinin kollektivi adından ürəkdən təbrik edir, gözəl Minsk şəhərində olmaqdan məmnunluğumu və hörmətli ev sahiblərimizə isti qonaqpərvərliklərinə görə minnətdarlığımı bildirirəm.

Məmnuniyyətlə qeyd etmək istərdim ki, Azərbaycanla Belarus arasında münasibətlər uğurla inkişaf edir.

Azərbaycan Prezidenti İlham Əliyevin Belarus Prezidenti Aleksandr Lukaşenko ilə bu yaxınlarda Minskdə keçirilmiş görüşdə qeyd etdiyi kimi, "Siyasi münasibətlərin yüksək səviyyəsi, ölkələrimiz arasında qarşılıqlı hörmət, etimad, prezidentlər arasında şəxsi dostluq - bütün bunlar üzərində Belarus-Azərbaycan dostluğunun möhtəşəm binasının tikildiyi təməldir".

Sevindirici haldır ki, nazirliklərimiz arasında əməkdaşlıq münasibətləri də dinamik inkişaf edir və 2017-ci ildə Əməkdaşlıq haqqında yeni Saziş imzalanaraq, nümayəndə heyətlərinin və yaxşı təcrübələrin səmərəli mübadiləsi aparılır. Hörmətli nazir Oleq Slijevskinin ötən ilin noyabrında Azərbaycan ədliyyəsinin 100 illik yubiley konfransında iştirakı və məzmunlu çıxışı sıx əməkdaşlığımızın bariz nümunəsidir.




Bu gün hörmətli həmkarımızın geniş məruzəsini böyük maraqla dinləyərək, bir daha həyata keçirilən islahatların tərəqqisinin şahidi olduq, bu da hüquqi xidmətlərin keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıraraq, ədliyyə sistemini yeni səviyyəyə qaldırmışdır. Biz dostlarımıza görə çox şadıq və onları bu nailiyyətlərə görə ürəkdən təbrik etmək istəyirik.

**Hörmətli həmkarlar,**

Məlum olduğu kimi, qədim zamanlardan bəri hüquqi dövlət ideyası bir çox tanınmış mütəfəkkir və filosofların əsərlərinin predmeti olmuşdur.

Bu gün hüquqi dövlət olmadan dayanıqlı inkişafı təsəvvür etmək çətindir. Buna görə də təəccüblü deyil ki, BMT-nin Baş Assambleyası tərəfindən təsdiq edilmiş dayanıqlı inkişaf sahəsində 2030-cu ilədək Gündəliyin əsas hədəflərindən biri qanunun aliliyinin təmin olunmasıdır. Bütün dünya ictimaiyyəti bu sənədi rəhbər tutaraq onun icrasına başlamışdır. Ölkəmizdə bu məqsədlə dövlət başçısının Fərmanı ilə Milli Əlaqələndirmə Şurası yaradılmışdır və Ədliyyə Nazirliyi orada fəal iştirak edir.

Həqiqətən, bu prosesdə Ədliyyə Nazirliyinin xüsusi rolu vardır, çünki Ədliyyə nazirliklərinin səlahiyyətləri, bizim ümumi keçmişimizdən fərqli olaraq, bu gün elə sahələri əhatə edir ki, onlarsız hüquqi dövlətin formalaşması və fəaliyyəti mümkün deyil.

Reqlamenti nəzərə alaraq, həmin səlahiyyətlərin bəziləri barədə qısaca danışmaq və təcrübəmizlə bölüşmək istərdim.

Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu və ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları nəticəsində müasirləşən və inkişaf edən Azərbaycanın Ədliyyə Nazirliyi geniş səlahiyyətlərə malikdir. Belə ki, bu gün nazirlik:

- qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı iş aparır;

- vətəndaşlıq vəziyyəti aktlarının və QHT-lərin dövlət qeydiyyatını həyata keçirir;

- bir sıra mühüm dövlət reyestrlərini aparır;

- penitensiar sistemin fəaliyyətinə nəzarəti həyata keçirir;

- notariat fəaliyyəti təmin edir;

- ədalət mühakiməsi əleyhinə və bəzi digər cinayətlərin ibtidai istintaqını aparır;

- bütün növ (qeyri-tibb) məhkəmə ekspertizalarını keçirir;

- məhkəmələrin fəaliyyətinin təşkilati təminatını həyata keçirir;

- məhkəmə qərarlarının, həmçinin azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasını təmin edir;

- bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirir, onlara metodiki köməklik göstərir və s.

Hüquqi dövlətin məqsədlərinə nail olmaq üçün mükəmməl qanunvericilik bazasının yaradılması vacib rol oynayır. Bu məsələlərdə Ədliyyə Nazirliyinin mühüm rolu şübhəsizdir.

Ölkəmizdə bu sahədə böyük həcmdə iş aparılır, hər il 4000-dən çox qanun layihələri hazırlanır və ya hüquqi ekspertizası həyata keçirilir. Bu zaman bizim vəzifəmiz onların hüquqi dövlətə xas olan əsas hüquq və azadlıqlara uyğunluğunu təmin etməkdir. Mən bu mövzuda çox danışmayacağam, çünki bu sahədə biz oxşar funksiyaları yerinə yetiririk.

Məlumdur ki, hüquqi dövlətin əsas elementi müstəqil məhkəmə sisteminin olmasıdır, çünki ədalət mühakiməsi olmadan hüquqi dövlət qurula bilməz.

Son illər Azərbaycanda məhkəmə sisteminin müstəqilliyinin təmin olunması ilə bağlı köklü dəyişikliklər baş vermişdir. Avropa Şurası ilə birgə həyata keçirilən islahatlar çərçivəsində məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı və tərkibi əsasən hakimlərdən ibarət olan Məhkəmə-Hüquq Şurası yaradılmışdır. Onun tərkibinə həmçinin, vəzifəyə görə ədliyyə naziri də daxildir.

Bu orqanın səlahiyyətlərinə məhkəmə hakimiyyətinin özünüidarə ilə bağlı olan bütün məsələlər, o cümlədən hakimlərin seçiminin təşkili, onların fəaliyyətinin qiymətləndirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb olunması və s. aiddir.

Eyni zamanda, onun səlahiyyətləri daim genişlənir. Son 15 ildə məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyə təxminən 50 dəyişiklik və əlavə edilmişdir.

Hakimlərin seçilməsi məsələsinə xüsusi diqqət yetirilərək, Azərbaycan hakimlərin ən şəffaf seçim qaydasını işləyib hazırlamışdır. Seçim - internetdə onlayn rejimdə canlı yayımlanmaqla keçirilən test və yazılı, habelə şifahi imtahanlardan, ölkədə və xaricdə beynəlxalq ekspertlərin və hakimlərin iştirakı ilə uzunmüddətli treninqdən, həmçinin məhkəmələrdə, hətta İnsan Hüquqları üzrə Avropa Məhkəməsində stajkeçmədən ibarət çoxmərhələli prosedurdur. Avropa Şurası və Avropa İttifaqı bu sahədə təcrübəmizi öyrənərək onu yaxşı praktikaların maraqlı modeli kimi dəyərləndirmişdir.

Bununla yanaşı, intensiv şəkildə konseptual baxımdan yeni məhkəmə infrastrukturu yaradılır. Paralel olaraq bütün məhkəmələr həm də ən son İT texnologiyaları ilə təchiz olunur və onlar yüksək texnoloji məhkəmələrə çevrilirlər. Artıq onlar ölkə üzrə bütün məhkəmə sisteminin 60 faizini əhatə edir ki, bu da ölkəmizdə çox fəal həyata keçirilən "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi baxımından xüsusilə vacibdir. Bu sistem məhkəməyə müraciət olunması anından məhkəmə qərarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edir.

Digər məsələlərlə yanaşı, o, elektron sənəd dövriyyəsini, o cümlədən iddia ərizələrinin elektron qaydada verilməsini təmin edir, məhkəmə xərclərini onlayn ödəmək, baxılan işlər və çıxarılan qərarlar barədə məlumat əldə etmək imkanı verir, məhkəmə proseslərinin audio-video yazılışını aparır, video-konfrans vasitəsilə proses iştirakçılarının uzaqdan dindirilməsini təmin edir, həmçinin məhkəmə idarəçiliyi işini əhəmiyyətli dərəcədə asanlaşdırır. Bu məqsədlər üçün məhkəmə sisteminin vahid internet portalı yaradılmış və orada "şəxsi elektron kabinet" fəaliyyət göstərir.

İslahatlarımız beynəlxalq aləmdə yüksək qiymətləndirilmişdir. Belə ki, Azərbaycan "Məhkəmənin Nəbzi - İdarəetmədə İnqilab" layihəsi ilə Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" nüfuzlu mükafatına layiq görülmüş, Ədliyyə Nazirliyinin həyata keçirdiyi digər "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi isə Dünya Bankı tərəfindən ən uğurlu layihə kimi qəbul edilmiş və artıq bizim təcrübəmizdən digər dövlətlər, o cümlədən burada təmsil olunan ölkələr bəhrələnmişlər.

Məhkəmələrdə iş yükünün həddsiz artdığını nəzərə alaraq onun azaldılması məqsədilə mülki mübahisələrin məhkəmədənkənar həllinə diqqət yetirilir. Mediasiyanın tətbiqi üzrə görülən işlərlə yanaşı, bu sahədə ən son yeniliklərdən biri də mübahisəsiz iddialarla bağlı əmr icraatında olan işlərin notariusların səlahiyyətlərinə verilməsidir. Artıq həmin işlərə notarius tərəfindən 24 saat ərzində İT texnologiyaların köməyi ilə baxılması və icraya yönəldilməsi mümkündür.

Ədalət mühakiməsinin səmərəliliyinin təmin olunmasında məhkəmə qərarlarının düzgün icrası mühüm rol oynayır.

Fikrimcə, çox az ölkə tapılar ki, bu sahədə problemi olmasın. Buna görə də son vaxtlar qanunvericiliklə borclulara təsir göstərən bir sıra effektiv metodlar tətbiq edilmişdir, məsələn, onların ölkədən çıxışının müvəqqəti məhdudlaşdırılması, bu məqsədlə məhdudiyyətin olub-olmamasını öyrənmək üçün elektron xidmət yaradılmışdır. Həmçinin "elektron icra sistemi"nin də tətbiqinə başlanılmışdır.

Bununla yanaşı, icra məmurlarının qanuni tələblərinin yerinə yetirilməməsinə görə inzibati məsuliyyət tədbirlərinin görülməsi ilə bağlı icra xidmətinin nüfuzu və səlahiyyətləri əhəmiyyətli dərəcədə artırılmış, həmçinin onların maddi stimullaşdırılması üçün geniş istifadə olunan xüsusi fond yaradılmışdır.

İnsan hüquqlarına hörmət, şübhəsiz ki, hüquqi dövlət ideyasının təməl daşıdır.

Ədliyyə Nazirliyinin səlahiyyətlərinə dair qeyd olunmalıdır ki, hələ 1918-ci ildə həbsxana sistemi ilk dəfə nazirliyin yurisdiksiyasına verilmişdir, bu məsələ cəmiyyətin həssas təbəqəsi olan məhkumlara münasibətdə xüsusi əhəmiyyət kəsb edir.

Burada Uinston Çörçilin sözlərini xatırlamaq yerinə düşərdi: "Hər bir cəmiyyətin mədəni-sivil inkişafının səviyyəsi, həmçinin ictimaiyyətin cinayətlərə münasibətindən və cinayətkarlarla davranışından asılıdır".

Azərbaycanda qanunvericiliklə məhkumların, xüsusilə təqsirləndirilən şəxslərin hüquq və imtiyazları xeyli genişlənmişdir. Bu gün təqsirləndirilən şəxslərin hüquqları, demək olar ki, məhkumlarla bərabər tutulur. Eyni zamanda, azadlıqdan məhrum edilmiş şəxslərə göstərilən tibbi xidmətin səviyyəsi əhəmiyyətli dərəcədə artmışdır. Penitensiar sistemdə vərəmə nəzarət proqramımız Amerika Birləşmiş Ştatlarında Səhiyyə Mükafatına layiq görülmüşdür.

Ölkəmizin bu ümumbəşəri sosial bəlaya qarşı mübarizədə əldə etdiyi uğurları nəzərə alaraq, Ümumdünya Səhiyyə Təşkilatı Ədliyyə Nazirliyində Beynəlxalq Təlim Mərkəzi yaratmışdır ki, onlarla dövlətin, o cümlədən konfransda iştirak edən Belarus, Gürcüstan, Tacikistan və Özbəkistanın nümayəndə heyətləri həmin mərkəzdə təlim keçmişlər. Bu sahədə təcrübəmizə maraq getdikcə daha çox artır.

Bununla yanaşı, cəza siyasətinin humanistləşdirilməsinə xüsusi diqqət yetirilir, amnistiya və əfv aktları geniş tətbiq olunur.

Ölkə Prezidentinin cəza siyasətinin humanistləşdirilməsinə dair imzaladığı 2017-ci il 10 fevral tarixli Sərəncamı bu sahədə ciddi dönüşə rəvac vermiş, köklü qanunvericilik və institusional islahatlara başlanmışdır. Belə ki, Cinayət Məcəlləsinə 300-dək dəyişiklik edilərək bir sıra əməllər dekriminallaşdırılmış, bəzi sanksiyalar azaldılmış və yeni, azadlıqdan məhrumetməyə alternativ cəzalar təsbit edilmişdir.

Bu məqsədlə yeni probasiya xidməti yaradılmış, yeni cəza növü - azadlığın məhdudlaşdırılması cəzasının qanunvericiliklə tətbiqi qaydası müəyyən edilərək icrasına başlanılmış, digər alternativ cəzaların, o cümlədən ictimai işlər növündə cəzanın daha effektiv icrasına nail olunmuş və həmin

cəzanın icrası ilə bağlı vəzifələrin yerinə yetirilməməsinə görə vəzifəli şəxslərin məsuliyyəti müəyyənləşdirilmişdir.

Qısa müddətdə ölkəmiz üçün münasib olan elektron qolbaqlar istehsal olunmuş və fasiləsiz fəaliyyət göstərən Elektron Monitorinq Mərkəzi yaradılmışdır.

Hələ heç bir il deyil ki, məhkumlara elektron qolbaqlar tətbiq olunur və onların sayı artıq 800-ü ötmüşdür, eyni zamanda bu sahədə təcrübəmiz artıq xarici həmkarlarımızın marağına səbəb olmuşdur.

Vəkilliyin hüquqi dövlətin əsas elementlərindən biri olduğunu, ədalət mühakiməsinin və insan hüquqlarının təmin olunmasında mühüm rolunu nəzərə alsaq, ölkəmizdə artıq 20 ildir ki, qeyri-dövlət, tamamilə müstəqil özünüidarə orqanı kimi fəaliyyət göstərən bu institutun hazırda müasirləşdirilməsi prosesi gedir. Onun gənc hazırlıqlı hüquqşünaslarla komplektləşdirilməsinə, onların peşəkarlıqlarının artırılması məqsədilə Ədliyyə Akademiyasında ixtisasartırma treninqlərinin təşkilinə xüsusi diqqət yetirilir. Vəkilliyin həmçinin Məhkəmə-Hüquq Şurasında təmsil olunması və hakimlərin seçimi prosesində iştirakı bu institutun əhəmiyyətinin və nüfuzunun əyani təzahürüdür.

**Hörmətli həmkarlar,**

Bu gün biz "elektron" elementləri tədricən əldə edən hüquqi dövlətin təkamülünə şahidlik edirik və bəzi elm adamları "elektron qanunyaradıcılıq" - "elektron hökumət" - "elektron məhkəmə" üçlüyü haqqında danışırlar.

"Elektron məhkəmə" mövzusuna artıq toxundum. Ədliyyə Nazirliyi həmçinin, "elektron qanunyaradıcılığ"a öz əhəmiyyətli töhfəsini verərək, ən mükəmməl, dəqiq, daim yenilənən və vətəndaşların təmənnasız istifadəsinə verilmiş qanunvericiliyin internet bazalarını yaratmışdır. Təkcə ötən il 10 milyon əhalisi olan ölkədə həmin resurslardan istifadəçilərin sayı 1,5 milyona çatmışdır.

Eyni zamanda, Ədliyyə Nazirliyi "elektron hökumət" sisteminin fəal iştirakçısıdır. Bu gün vətəndaşlara ədliyyə sahəsində 30-dan çox elektron xidmət göstərilir və onların bəziləri ölkədə ən populyardır.

Artıq illərdir ki, notariat və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı orqanları xarici həmkarlarımızın da böyük marağını cəlb etdiyi elektron sistemə keçmişlər.

Ən son yeniliklər sırasında elektron ədliyyə köşkü vasitəsi ilə notariat xidmətlərinin fasiləsiz onlayn rejimdə göstərilməsinin mümkünlüyünü qeyd etmək istərdim. Onlar əsasən sərhəd-keçid məntəqələrində, aeroportlarda, dəmir yolu stansiyalarında və limanlarda yerləşdiriləcəkdir. Bununla yanaşı, məsafədən xidmətlər göstərilməsi məqsədilə özündə kompüteri, printeri, skaneri və kamerası, həmçinin müvafiq elektron məlumat bazalarına daimi çıxış imkanı olan "notariat çantası" işlənib hazırlanmışdır.

Bundan əlavə, analoqu olmayan "Notariat" mobil proqram təminatı hazırlanmışdır. Həmin proqramı smartfona yükləməklə istifadəçilər notariat fəaliyyətinə dair bütün məlumatları əldə edə bilirlər. Həmçinin, həmin şəxs özünün bütün notariat əməliyyatlarını bir yerdə toplaya biləcəyi "elektron kabinet" də yaradır.

Burada xüsusilə qeyd etmək istərdim ki, bu islahatlar Ermənistan tərəfindən torpaqlarımızın işğalı şəraitində aparılır. Təəssüflə bildirməliyəm ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində Ermənistan tərəfindən torpaqlarımızın 20 faizi işğal olunmuş, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, 500-dən çox tarixi və mədəni abidələrimiz dağıdılaraq məhv edilmişdir. BMT-nin Təhlükəsizlik Şurasının erməni qoşunlarının torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə və bununla bağlı beynəlxalq təşkilatların digər qərarlarına məhəl qoymayan Ermənistan tərəfindən torpaqlarımızın işğalı hələ də davam etdirilir.

**Əziz dostlar,**

Sonda Belaruslu həmkarlarımızı əlamətdar yubiley münasibətilə və Belarus xalqının rifahı naminə hüquqi dövlət quruculuğu istiqamətində ədliyyə fəaliyyətin təkmilləşdirilməsi üzrə əldə olunan uğurlara görə bir daha təbrik edirəm.

*Diqqətinizə görə minnətdaram.*

# Dünya Bankı ilə ədliyyə sahəsində birgə layihələr uğurla həyata keçirilir




**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan mütərəqqi məhkəmə-hüquq islahatları nüfuzlu beynəlxalq qurumlar, o cümlədən Dünya Bankı tərəfindən yüksək dəyərləndirilir və bu sahədə birgə layihələr uğurla həyata keçirilir. Həmin layihələr çərçivəsində, habelə dövlət büdcəsi hesabına 16 məhkəmə üçün yeni, müasir binalar və komplekslər tikilərək istifadəyə verilib.**

Onların bir çoxunun açılışlarını edən dövlətimizin başçısı Bank ilə birgə həyata keçirilən bu islahatları yüksək dəyərləndirib. Həmçinin, Dünya Bankı ədliyyə sahəsindəki layihələri ən uğurlularından hesab edərək innovasiyalara görə nominasiyaların qalibi elan edib.

Fevralın 22-də ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Dünya Bankının Cənubi Qafqaz üzrə Regional Direktoru xanım Mersi Tembon ilə görüşüb.

Azərbaycan və Dünya Bankı arasında səmərəli əməkdaşlığı qeyd edən nazir ölkə Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi ilə aparılan və beynəlxalq aləmdə təqdir olunan məhkəmə-hüquq islahatları, o cümlədən infrastrukturun müasirləşdirilməsi, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə görülən işlər barədə məlumat verib, bu sahədə Dünya Bankının dəstəyini qeyd edib. Həmçinin ədliyyə sistemində digər innovasiyaların tətbiqindən və nailiyyətlərdən bəhs edib, vətəndaşlara xidmət sahəsində fəaliyyətə könüllülərin cəlb olunduğunu bildirib. Nazir ölkəmizin bu sahələrdə uğurlarına beynəlxalq maraq artaraq bir çox dövlətlərin müsbət təcrübəmizdən bəhrələndiyini vurğulayıb.

Azərbaycanın hərtərəfli tərəqqisinin Dünya Bankının "Doing Business 2019" hesabatında əks olunduğunu və ölkəmizin dünyanın 10 ən islahatçı dövlətlərdən olduğunu qeyd edən xanım Mersi Tembon səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edildiyini, dövlətimizin başçısının məhkəmə sisteminin inkişafına və bu sahədə Bank ilə qarşılıqlı fəaliyyətin davam etdirilməsinə önəm verməsini məmnunluqla qeyd edib.

O, Dünya Bankının Ədliyyə Nazirliyi ilə əməkdaşlığını təqdir edərək, ədliyyə sahəsində görülən uğurlu işlərin dünyada örnək olduğunu vurğulayıb, həyata keçirilən layihənin gedişatından və nəticələrindən heyranlığını ifadə edərək, Şəkidə Məhkəmə Kompleksi ilə tanış olarkən məhkəmə sisteminin müasirləşməsinin ən yüksək səviyyəsinin şahidi olduğunu söyləyib.

Bildirib ki, Azərbaycanın bu sahədə nailiyyətləri dünyanın nadir ölkələrində rast gəlinir. Məhkəmə sistemində müasir texnologiyaların tətbiqi, videokonfransların keçirilməsi üçün hər cür şəraitin yaradılması əhalinin, o cümlədən həssas təbəqələrin ədalət mühakiməsinə əlçatanlığına, məhkəmə fəaliyyətinin şəffaflığına və səmərəliliyinə xidmət edir.

Görüşdə əməkdaşlığın perspektivləri müzakirə olunub, ölkəmizin bu sahədə nailiyyətlərinin dünyada daha geniş yayılmasının əhəmiyyəti qeyd edilərək birgə tədbirlərin keçirilməsi barədə razılığa gəlinib, Dünya Bankının məhkəmə-hüquq islahatlarına bundan sonra da dəstək göstərməyə hazır olduğu bildirilib.

Qonaq nazirlikdə Azərbaycan ədliyyəsinin tarixi muzeyi ilə tanış olub.

# Ədliyyə naziri Xaçmazda vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq fevralın 15-də ədliyyə naziri Fikrət Məmmədov Xaçmaz regional ədliyyə idarəsində Xaçmaz, Quba, Qusar və digər rayonlardan olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər. Həmçinin rayonda mədəni-tarixi abidələrlə tanış olunub.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri yerli məhkəmə və ədliyyə orqanlarının işi ilə tanış olub, bu sahədə fəaliyyətə cəlb olunmuş gənc könüllülərlə görüşüb, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

Nazir müşavirədə ölkə Prezidenti cənab İlham

Əliyevin rəhbərliyi ilə respublikamızın hərtərəfli, o cümlədən regionların sosial-iqtisadi tərəqqisini vurğulayıb, nazirliyin ötən ilki fəaliyyətinin yekunlarından bəhs edərək işin dövlət başçısının tələbləri səviyyəsində təkmilləşdirilməsi, o cümlədən innovativ metodlar tətbiq edilməklə səmərəli təşkili, könüllülük institutunun ədliyyə sahəsində daha geniş təşviqi, habelə vətəndaş məmnunluğunun yüksəldilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, korrupsiyanın yolverilməzliyi ilə bağlı tapşırıq və tövsiyələr verib, ölkə rəhbərinin 2018-ci il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər Dövlət Proqramı"nın icrası ilə bağı nazirliyin üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd edib.

Eyni zamanda dövlət başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci il dekabrın 28-də qəbul edilmiş Mülki Prosessual Məcəllədə və "Məhkəmələr və hakimlər haqqında" Qanunda əsaslı dəyişikliklər barədə yeni qanunların məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə, işin səmərəliliyinin və keyfiyyətinin artırılmasına, iş yükünün azaldılmasına, "elektron məhkəmə" sistemi geniş tətbiq olunmaqla işlərə daha operativ baxılmasına xidmət etdiyi qeyd olunub, qanunvericiliyin yeni müddəalarının dərindən öyrənilməsinin və düzgün tətbiqinin zəruriliyi bildirilib.

# Qlobal Fond nümayəndələri ilə Penitensiar xidmətdə görüş



**Fevralın 14-də İİV/-QİÇS, Vərəm və Malyariya ilə mübarizə üzrə Qlobal Fondun nümayəndələri ilə Penitensiar xidmətdə görüş keçirilib.**

Qonaqları salamlayan ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənov ötən görüş zamanı penitensiar müəssisələrdə opioidlərlə əvəzedici müalicə metodlarının müzakirə olunduğunu xatırladaraq, Qlobal Fondu layihə çərçivəsində maraqlandıran məsələləri bir daha müzakirə etməyə və lazım olan hüquqi dəstək verməyə hazır olduğunu qeyd edib. Vurğulanıb ki, Penitensiar xidmət mötəbər beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edir, çoxsaylı beynəlxalq tədbirlərdə təmsil olunur və qabaqcıl təcrübənin öyrənilməsində maraqlıdır. Yarandığı gündən Qlobal Fondun fəaliyyət göstərdiyi 150-dən çox ölkə ilə əməkdaşlıq nəticəsində milyonlarla insan həyatını xilas etməsi böyük göstəricidir.

Nazir müavini Penitensiar xidmətin tabeçiliyində olan is-

tintaq təcridxanaları və cəzaçəkmə müəssisələrində narkotik maddələrin zərəri ilə bağlı fərdi profilaktika, maarifləndirmə işinin aparılması barədə qonaqları məlumatlandırıb. Qeyd edilib ki, xidmət əməkdaşları üçün yerli və beynəlxalq təşkilatlar tərəfindən müvafiq seminar-treninqlər təşkil olunur, bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinə xüsusi önəm verilir. Eyni zamanda "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanunun ayrı-ayrı müddəaları Fond nümayəndələrinin diqqətinə çatdırılıb.

Səmimi qəbula və əməkdaşlığa görə Penitensiar xidmət rəhbərliyinə minnətdarlığını bildirən Qlobal Fondun meneceri Olqa Avdeyeva respublikamızın vərəm və QİÇS-lə mübarizədə əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirdiyini, ölkəmizin bu sahədə beynəlxalq təşkilatlarla, o cümlədən Qlobal Fondla əməkdaşlığını təqdirəlayiq hal olduğunu qeyd edib. Bildirilib ki, bu sahədə maliyyə vəsaitlərinin ayrılması davam etdiriləcək.

Görüşdə "Opioidlərlə əvəzedici müalicə"nin penitensiar müəssisələrdə tətbiqi imkanları müzakirə edilib, Fond nümayəndələrinə bu müalicə üsulunun tətbiqinin beynəlxalq təcrübənin öyrənilməsindən və qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsindən sonra mümkün olduğu bildirilib.

Xanım O.Avdeyeva opioidlərlə əvəzedici müalicə metodunun tətbiqi sahəsində Səhiyyə Nazirliyi ilə birlikdə mühüm işlərin görüldüyünü qeyd edib, beynəlxalq İşçi qrupunun yaradıldığını və müvafiq maliyyə vəsaitlərin ayrılmasını bildirib, müalicəyə cəlb olunacaq şəxslərin sayının müəyyən edilməsi istiqamətində işlərin getdiyini açıqlayıb. O, bu lahyənin həm mülki sektorda, həm də məhkumlar arasında müsbət nəticə verəcəyinə ümidvar olduğunu söyləyib.

Çıxış edən Ədliyyə Nazirliyi Tibb baş idarəsinin rəisi Rəfail Mehdiyev narkotik maddələrlə Penitensiar xidmətdə çox ciddi mübarizə aparıldığını qeyd edib, beynəlxalq təcrübənin uyğunlaşdırılaraq tətbiq olunması, metadonla müalicə metodlarının tətbiqi ilə bağlı yaranacaq problemlərin həlli istiqamətində addımların atılmasının və layihə çərçivəsində ümumi elektron informasiya bazasının yaradılmasının vacibliyini bildirib.

Qəbul zamanı mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb.

Sonda Nazir müavini qonaqlara əməkdaşlığa və əldə olunan nəticələrə görə bir daha minnətdarlığını bildirib, layihə və onun icrası ilə bağlı hər zaman müzakirələrə və dəstəyə hazır olduğunu qeyd edib.

Görüşdə Ədliyyə və Səhiyyə Nazirliklərinin məsul əməkdaşları iştirak ediblər.

# Ədliyyə sahəsində innovasiyalar təqdir olunur

**Ölkə Prezidenti cənab İlham Əliyevin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası çərçivəsində azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinin genişləndirilməsi üzrə ardıcıl tədbirlər görülür, bu məqsədlə Ədliyyə Nazirliyində Probasiya xidməti yaradılmaqla həmin cəzaların icrasında elektron nəzarət vasitələrinin tətbiqinə başlanılıb.**

Qısa müddətdə bu sahədə yaranmış müsbət təcrübəmizə maraq göstərilərək digər dövlətlər tərəfindən yerində öyrənilir, probasiya fəaliyyətinin ictimai əhəmiyyəti nəzərə alınaraq geniş təqdimatlar keçirilir.

Ölkəmizdə fəaliyyət göstərən qərb dövlətlərinin diplomatik korpusunun nümayəndələri bu sahədə təcrübəmizlə tanış olmaq barədə niyyətlərini bildirərək nazirliyin Probasiya xidmətinə baş çəkiblər.

Keçirilmiş görüşdə dövlət başçısının Sərəncamının icrası üzrə görülən işlər, o cümlədən azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinin genişləndirilməsi, bu sahədə probasiya xidmətinin elektron monitorinq fəaliyyəti barədə








məlumat verilib. Bildirilib ki, həmin cəzaların icrasında xarici təcrübə qısa müddətdə öyrənilib, bir çox müxtəlif modellər sınaqdan keçirilib, elektron nəzarət vasitələrinin məhz yerli istehsalı təşkil olunub.

Məhkəmələr tərəfindən alternativ cəzaların tətbiqinə daha çox üstünlük verilməsinin nəticəsidir ki, bir ildən az müddətdə artıq 900-dən çox məhkuma elektron qolbaq tətbiq olunub.

Qonaqlar Xidmətin Elektron monitorinq mərkəzinin fasiləsiz fəaliyyəti, elektron qolbağın imkanları və tətbiqi xüsusiyyətləri ilə əyani tanış olub, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında innovasiyaları, bu sahədə məhkəmə praktikasında humanist yanaşmanı yüksək qiymətləndirib, elektron qolbaqların tətbiqi sayının artmasını məmnunluqla qarşılayaraq qısa müddətdə belə proqresə dünyanın nadir ölkələrində rast gəlindiyini vurğulayıblar.

Müzakirələr zamanı qonaqları maraqlandıran suallar ətraflı cavablandırılıb, faydalı fikir mübadiləsi aparılıb.

Tədbirdə həmçinin, qonaqlara ədliyyə sahəsində tətbiq olunan digər innovasiyalar və rəqəmsal texnologiyalar barədə məlumat verilib, notariat hərəkətlərinin asan və çevik aparılması, əhalinin məmnunluğunun təmin olunması üçün məsafədən xidmətlərin göstərilməsinə imkan verən elektron ədliyyə köşkü, səyyar notariat çantası, dünya təcrübəsində rast gəlinməyən və Azərbaycan məhsulu olan bütün notariat fəaliyyətinə dair mobil telefona yüklənən proqram təminatı nümayiş etdirilib.

Ədliyyə sahəsindəki yeniliklərdən heyranlıqlarını ifadə edən diplomatik korpusun nümayəndələri qısa zamanda vətəndaşlara xidmət sahəsində müasir innovativ texnologiyaların tətbiqi üzrə mükəmməl inkişafa nail olunduğunu vurğulayıb, əldə olunan nailiyyətləri təqdir ediblər.

# Gənclər günü Ədliyyə Nazirliyində qeyd olunub

**Ədliyyə orqanlarında çalışan işçilərin böyük əksəriyyətini təşkil edən gənclərlə aparılan iş, onların qulluq keçməsi, layiqli dövlət qulluqçusu kimi formalaşması, bilik, bacarıq və potensialından səmərəli istifadə edilməsi məsələləri Nazirliyin rəhbərliyinin daim diqqət mərkəzində saxlanılır.**

2 fevral - Azərbaycan Gəncləri Günü ərəfəsində 70-ə yaxın gənc hüquqşünas attestasiyadan keçirilərək ədliyyə orqanlarında daimi qulluğa qəbul edilmələri və onlara ilkin xüsusi rütbələrin verilməsi barədə müsbət qərarlar qəbul olunub, gənclərlə görüşlər keçirilib. Həmçinin nazirliyin muzeyləri ilə tanışlıq olub, foto-slaydlar nümayiş etdirilib.

Əlamətdar gün münasibətilə keçirilən tədbirlərdə ümummilli lider Heydər Əliyevin gənclərə diqqət və qayğısından bəhs olunub, Ulu Öndərin təməlini qoyduğu dövlət gənclər siyasətinin möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirildiyi vurğulanıb, bu gün ölkəmizdə dövlətçilik amallarına, milli-mənəvi və bəşəri dəyərlərə sadiq Azərbaycan gəncliyinin formalaşdığı, onların cəmiyyətimizin fəal üzvlərinə çevrildiyi bildirilib.

Dövlət başçısının Azərbaycan Gəncləri Gününə həsr olunan respublika toplantısın-






da çıxışı zamanı gənc nəslin peşəkar olması, milli və vətənpərvərlik ruhunda tərbiyə alması, xalqa və dövlətə bağlılığı, müstəqilliyimizin möhkəmləndirilməsi barədə tövsiyələri gənclərin diqqətinə çatdırılıb. Onların çalışdıqları ədliyyənin müxtəlif sahələri üzrə təşəbbüsləri, innovativ ideyaları və təklifləri dinlənilib, gənclərin uğurla fəaliyyət göstərəcəklərinə, müstəqil Azərbaycanımızın hərtərəfli inkişafı üçün sədaqətlə və əzmkarlıqla çalışacaqlarına əminlik ifadə olunub.

# Gənclər ədliyyə sahəsində könüllü fəaliyyətə dəvət olunur

**Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir, Azərbaycan gəncliyinin hərtərəfli inkişafına, cəmiyyətin bütün sahələrində fəal iştirakına əlverişli imkanlar yaradılır. Eyni zamanda, son illər Azərbaycanda könüllülər hərəkatı geniş vüsət alıb, dövlət başçısının təşəbbüsü ilə "Könüllü fəaliyyət haqqında" Qanun qəbul olunub, minlərlə gənc müxtəlif təşkilatlarda, o cümlədən "ASAN Könüllülər" şəbəkəsində fəaliyyətə cəlb olunmaqla cəmiyyətimizin fəal üzvlərinə çevriliblər.**



Dövlət siyasətinə uyğun olaraq ədliyyə orqanlarında da gənclər geniş təmsil olunur, onlara xüsusi qayğı ilə yanaşılır, mütəmadi görüşlər keçirilir. Gənclərin işlə təminatı diqqətdə saxlanılaraq son 5 ildə şəffaf seçimlər əsasında 2000-dən çox gənc hüquqşünas qulluğa qəbul olunub, onlar ədliyyənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərir və bir çoxu məsul vəzifələrə irəli çəkilib.

Ümumilikdə, ədliyyə sistemində çalışan işçilərin təxminən 40 faizini gənclər təşkil edir.

Hazırda qulluğa qəbulla bağlı müsabiqədə uğur qazanaraq Ədliyyə Akademiyasında keçirilmiş icbari təlimin nəticələri üzrə peşə fəaliyyətinə buraxılmış, əksəriyyəti gənclər olan daha 80-ə yaxın hüquqşünasın təyinatı məsələsinə baxılır.

Eyni zamanda, ötən ilin sonunda nazirlik tərəfindən elan olunmuş növbəti açıq müsabiqədə iştirak etmək üçün 350-ə yaxın hüquqşünas ərizə

ilə müraciət edib və onlarla test imtahanı keçiriləcəkdir.

Həmçinin dövlət başçısının tapşırıqlarına uyğun olaraq nazirlik tərəfindən könüllülər institutunun genişləndirilməsinə, gənclərə peşə vərdişləri aşılanmasına, onların ədliyyə sistemində təcrübə keçmələrinə daim diqqət yetirilərək Nazirliyin Kollegiyası tərəfindən 2016-cı ilin oktyabr ayında "Ədliyyə orqanlarında könüllülər institutunun təşviqi üzrə əlavə tədbirlər barədə" xüsusi qərar qəbul edilib.

Bununla əlaqədar ölkəmizin müvafiq ali təhsil müəssisələri və tələbə-gənclər təşkilatları, eləcə də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə səmərəli əlaqələr qurulub, gənclərlə çoxsaylı görüşlər keçirilərək 1200-ə yaxın könüllü ədliyyə və məhkəmə fəaliyyətinə cəlb olunub, onların bir qismi üçün Ədliyyə Akademiyasında xüsusi təlimlər təşkil olunub.

Könüllülük institutunun təşviqi gənclərdə ədliyyə fəaliyyəti ilə tanışlıq, bu sahələrdə işləməyə həvəsin artırılması, onların yaradıcı və innovativ potensialının üzə çıxarılması, məşğulluğunun təmin olunmasına şəraitin yaradılması, eləcə də kadr ehtiyatının formalaşdırılması məqsədi daşıyır.

Hazırda bu sahədə fəaliyyətin daha mütəşəkkil qaydada həyata keçirilməsi üçün gənclərə bilavasitə Nazirliyə müraciət etmək imkanı yaradılır. Bununla əlaqədar hüquqşünaslıq və informasiya-kommunikasiya texnologiyaları ixtisasları üzrə ali təhsil müəssisələrinin bakalavr səviyyəsinin sonuncu kurslarında, habelə magistratura səviyyələrində təhsil alan gənclər ədliyyə sahəsində könüllü fəaliyyətə dəvət edilir.

Müraciətləri hr@justice.gov.az elektron ünvanı vasitəsilə və ya Nazirliyin inzibati binasında (Bakı şəhəri, İnşaatçılar prospekti 1) təqdim etmək mümkündür.

Əlavə məlumatları Nazirliyin internet səhifəsindən (www.justice.gov.az) və (012) 537-05-90, 537-04-87 nömrəli telefonlar vasitəsilə almaq olar.

# İcra baş idarəsi və ABA arasında görüş

**Ədliyyə Nazirliyinin İcra baş idarəsinin rəhbərliyi ilə Azərbaycan Banklar Assosiasiyasının (ABA) Rəyasət Heyəti arasında görüş keçirilib.**



Nazirliyin İcra baş idarəsinin rəisi - baş icra məmuru Nurəddin Mustafayevin və digər məsul şəxslərin, ABA-nın prezidenti Zakir Nuriyevin və Rəyasət Heyəti üzvlərinin iştirak etdiyi görüşdə icra prosesinin təkmilləşdirilməsi, icrada olan işlərin icrasının sürətləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb, təkliflər irəli sürülüb.

Həmçinin "Elektron icra" informasiya sistemi haqqında təqdimat keçirilib, icra prosesinin rəqəmsal texnologiyalardan istifadə etməklə təkmilləşdirilməsi və asanlaşdırılması üzrə görülən və qarşıda duran işlər, habelə hazırlanmaqda olan icra sahəsində vahid normativ hüquqi aktın - "Azərbaycan Respublikasının İcra Məcəlləsi"nin layihəsi barədə məlumat verilib.

Görüşdə müzakirə olunan məsələlər üzrə işlərin davam etdirilməsi və qarşılıqlı fəaliyyətin genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb.

# Pilot bələdiyyələr üçün seminar keçirilib



**Fevralın 6-da Ədliyyə Nazirliyi Bələdiyyələrlə iş mərkəzində pilot bələdiyyələr üçün "Subvensiya layihələrinin hazırlanması və təqdim edilməsi" mövzusunda seminar keçirilib.**

Seminarda "2019-cu ilin dövlət büdcəsi haqqında" Qanunda ilk dəfə olaraq bələdiyyələrə subvensiya ayrılmasının önəmindən danışılıb, ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planının 9.3.1-ci yarımbəndində verilmiş tapşırığın icrası üzrə pilot qismində seçilmiş bələdiyyələrin maliyyə imkanlarının yaxşılaşdırılmasında subvensiya vəsaitlərinin mühüm rol oynayacağı qeyd olunub.

İştirakçılara subvensiya layihələrinin hazırlanması üçün tələb olunan sənədlər, onların hazırlanması və təqdim edilməsi qaydaları, subvensiya vəsaitinin istifadəsi və istifadəsinə dövlət nəzarəti haqqında ətraflı məlumat verilib, suallar cavablandırılıb, hazırlanmış layihələr haqqında məlumatlar dinlənilib, subvensiya ala bilmək üçün layihələrin martın 15-dək Maliyyə Nazirliyinə təqdim olunması tövsiyə edilib.

Seminarda Bələdiyyələrlə iş mərkəzinin, Maliyyə Nazirliyinin Yerli büdcə ilə iş sektorunun rəhbər şəxsləri, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin təmsilçisi, müstəqil ekspertlər, pilot bələdiyyələrin sədrləri və yerli büdcə komissiyalarının üzvləri iştirak ediblər.

# Ədliyyə Akademiyasının məlumatları



**Fevralın 5-8-də Ədliyyə Akademiyasının və Beynəlxalq Miqrasiya Təşkilatının birgə təşkilatçılığı ilə "Çirkli pulların yuyulması" mövzusunda təlimçilər üçün təlim keçirilib.**

Hakimlərin, vəkillərin, prokurorluq orqanlarının və Ədliyyə Akademiyasının əməkdaşlarının cəlb olunduğu təlimdə yerli və beynəlxalq ekspertlər tərəfindən çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə təlim kurikulumu barədə məlumat verilib, bu sahədə problemlərə toxunularaq, milli və beynəlxalq tənzimləyici tələblər və əməkdaşlıq, kriminoloji-empirik və məhkəmə yanaşması, çirkli

pulların müəyyənləşdirilməsi üzrə tipologiyalar, onların araşdırılması kimi məsələlər müzakirə edilib.

Həmçinin, müxtəlif kazuslar ətrafında müzakirələr aparılıb, təlim iştirakçıları tərəfindən müxtəlif tapşırıqlar yerinə yetirilib.

20-yə yaxın dinləyicinin qatıldığı təlimin yekununda iştirakçılara sertifikatlar təqdim olunub.



**Cari ilin fevral ayında Ədliyyə Akademiyasında ədliyyə işçiləri üçün müxtəlif mövzularda ixtisasartırma kursları təşkil olunub.**

Nazirliyin penitensiar və tibb xidmətlərinin, Məhkəmə ekspertizası mərkəzinin ümumilikdə 230-dək əməkdaşının cəlb olunduğu ayrı-ayrı tədris tədbirləri "İKT-nin müasir imkanları və ədliyyə orqanlarında tətbiqi məsələləri", "Korrupsiyaya qarşı mübarizə" mövzularına həsr olunub.

Həmin tədbirlərdə dinləyicilərə elektron imza, nazirliyin e-xidmətləri və informasiya sistemləri, elektron sənəd dövriyyəsinin təşkili, habelə etik davranış məsələləri, antikorrupsiya mədəniyyətinin yüksəldilməsi, maraqların toqquşmasının qarşısının alınması və digər mövzular üzrə mühazirələr tədris olunub, iştirakçıları maraqlandıran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

**Ədliyyə Akademiyasında yerli icra və probasiya şöbələrinin və regional ədliyyə idarələrinin əməkdaşları üçün "Kargüzarlığın və arxiv işinin təşkili" mövzusunda seminar-müşavirə keçirilib.**

Həmin qurumlarda kargüzarlığın və arxiv işinin səmərəli və düzgün təşkili, xüsusilə nomenklatur-siyahının tərtib olunması ilə bağlı çoxsaylı sualların yarandığını nəzərə alaraq Ədliyyə Nazirliyinin Katibliyi tərəfindən keçirilən tədbirdə 80-dən çox dinləyici iştirak edib.

Seminarda Katibliyin məsul əməkdaşları Səadət Əkbərova, Lalə Xəlilova və Şəfa Səmədova tərəfindən "Vətəndaşların müraciətləri haqqında" Qanunun müddəaları izah olunub, kargüzarlığın aparılması və nəzarətin həyata keçirilməsi, nomenklatur-siyahının tərtib olunması və təsdiq edilməsi qaydası, ədliyyə sahəsinə aid arxiv sənədlərinin müəyyən olunmuş qaydada saxlanılması və mühafizəsinin təmin edilməsi mövzuları üzrə mühazirələr dinləyicilərin diqqətinə çatdırılıb və çoxsaylı suallar ətraflı cavablandırılıb.







**Ədliyyə Akademiyasında hakimlər üçün "İnsan alveri və əlaqədar cinayət işlərinə məhkəmə qaydasında baxılması" mövzusunda keçirilən ixtisasartırma kursunda birinci instansiya və apellyasiya məhkəmələrindən 18 hakim iştirak edib.**

Kursda insan alveri cinayətlərinin tövsifi məsələləri, Avropa İnsan Hüquqları Məhkəməsinin presedentləri və dövlətin öhdəlikləri, insan alveri ilə bağlı işlər üzrə icraatın xüsusiyyətləri, onun beynəlxalq və milli səviyyədə kriminallaşdırılması kimi məsələlər işıqlandırılıb.

**Akademiyada həmçinin məhkəmə aparatı işçiləri və vəkillər üçün "Məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılmasına yönəlmiş tədbirlər" mövzusunda təlimlər keçirilib.**

100-ə yaxın dinləyicinin iştirak etdiyi təlimlərdə 2018-ci il 28 dekabr tarixli Qanunla Mülki Prosessual Məcəlləsində edilən əsaslı dəyişikliklər, Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) və onun alətlərinin məhkəmələrin səmərəli idarə edilməsində rolu, elektron məhkəmə sisteminin tətbiqi, habelə dövlət qulluqçularının korrupsiyaya qarşı davranışı və digər mövzular üzrə mühazirələr söylənilib.

***

Vəkillər üçün Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət şərtləri və qaydası mövzusunda da təlim keçirilib.

**Fevralın 18-də Ədliyyə Akademiyası və Bələdiyyələrlə iş mərkəzinin birgə təşkilatçılığı ilə Akademiyada və Şirvan regional ədliyyə idarəsində bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə tədris kursu keçirilib.**

Ümumilikdə 80-dən çox bələdiyyə nümayəndələrinin iştirak etdiyi kurslarda bələdiyyə mülkiyyəti, bununla bağlı Avropa Şurasının sənədləri, bələdiyyə torpaqlarının idarə olunmasında qanunçuluğun təmin edilməsi, strateji yol xəritəsinin icrasında bələdiyyələrin iştirakı, bələdiyyə qulluğuna qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi, bələdiyyə-media münasibətlərinin hüququ tənzimlənməsi mövzuları üzrə mühazirələr dinləyicilərin diqqətinə çatdırılıb.



"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 1, maddə 8; 2005, N 1, maddə 1, N 8, maddə 700; 2006, N 2, maddə 70; 2008, N 2, maddə 49; 2010, N 4, maddə 265; 2012, N 1, maddə 2, N 7, maddə 651; 2013, N 12, maddə 1479; 2014, N 2, maddə 78, N 7, maddə 769, N 11, maddə 1356, N 12, maddə 1526; 2015, N 11, maddə 1259; 2016, N 4, maddə 644, N 10, maddə 1606; 2017, N 5, maddələr 709, 724, N 10, maddə 1775) aşağıdakı məzmunda 9-1-ci maddə əlavə edilsin:

**"Maddə 9-1. Məhdud məsuliyyətli cəmiyyətin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin elektron qaydada qeydiyyata alınması**

9-1.1. Məhdud məsuliyyətli cəmiyyətin təsis sənədlərində edilən hər bir dəyişiklik (yenidən təşkil nəticəsində dəyişiklik halları istisna olmaqla), eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliyinin elektron qaydada dövlət qeydiyyatına alınması üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına müraciət edilə bilər. Dəyişiklik bu Qanunun 5-1.5-ci və 11.3-cü maddələrinin tələblərinə zidd olmadıqda, müvafiq icra hakimiyyəti orqanı 3 gün müddətində dəyişikliyi qeydiyyata alır.

9-1.2. Müraciət zamanı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının internet informasiya ehtiyatında yerləşdirilmiş elektron ərizə forması doldurularaq, dəyişikliyi təsdiq edən sənədlərin skan olunmuş surəti ərizəyə əlavə edilərək gücləndirilmiş elektron imza ilə təsdiq edilməlidir.

9-1.3. Qanuni təmsilçi (qanuni təmsilçilər) dəyişikliyinin qeydiyyata alınması zamanı ərizə həm təsisçi (təsisçilər), həm də qanuni təmsilçinin (qanuni təmsilçilərin) gücləndirilmiş elektron imzası ilə təsdiq edilməlidir.

9-1.4. Təsis sənədlərinin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliklərinin dövlət qeydiyyatına alınması üçün daxil edilmiş məlumatlar müvafiq olaraq təsisçilərin və ya idarəetmə orqanlarının üzvlərinin gücləndirilmiş elektron imzaları ilə təsdiq edilməlidir. Nizamnamədə dəyişiklik edilən hallarda təqdim olunmuş məlumatlar əsasında proqram təminatı tərəfindən dəyişiklik layihəsi hazırlanır. Bu halda təsisçi (təsisçilər) nizamnaməyə dəyişikliklə real vaxt rejimində tanış olur və onu gücləndirilmiş elektron imza ilə təsdiq edir.

9-1.5. Müraciət zamanı dəyişiklik dövlət qeydiyyatına alınaraq, dövlət reyestrinə daxil edildiyi gün dövlət reyestrindən çıxarış və dəyişiklik edilmiş digər sənədlər (nizamnaməyə dəyişiklik, dövlət qeydiyyatı haqqında şəhadətnamə) məhdud məsuliyyətli cəmiyyətin elektron kabinetinə göndərilir.

9-1.6. Təsisçinin (təsisçilərin) və ya onun (onların) müvafiq qaydada vəkil etdiyi şəxsin müraciəti əsasında dövlət reyestrindən çıxarış və dəyişiklik edilmiş digər sənədlər (nizamnaməyə dəyişiklik, dövlət qeydiyyatı haqqında şəhadətnamə) təsdiq olunaraq kağız daşıyıcılarında da verilir.

9-1.7. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalındakı iştirak paylarının dəyişikliyi ilə bağlı aparılmış notariat hərəkətləri barədə məlumatlar müvafiq icra haki-

miyyəti orqanı tərəfindən onlayn rejimdə müvafiq icra hakimiyyəti orqanına təqdim edilir.

9-1.8. Təsisçi əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin (təsisçi dəyişikliyi istisna olmaqla) dövlət qeydiyyatı bu maddəyə uyğun olaraq həyata keçirilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*
*N 1393-VQD*

## Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Ailə Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 3 (I kitab), maddə 126; 2002, N 12, maddə 702; 2004, N 7, maddə 505; 2006, N 2, maddə 66, N11, maddə 923, N 12, maddələr 1005, 1006; 2007, N 1, maddə 4, N 8, maddə 745, N 11, maddə 1053, N 12, maddə 1218; 2008, N 7, maddə 602; 2010, N 2, maddə 70, N 3, maddə 171, N 5, maddə 380, N 7, maddə 578; 2011, N 7, maddələr 585, 620, N 12, maddə 1110; 2014, N 12, maddə 1515; 2015, N4, maddə 348) 164.1-ci maddəsində "təqdim edildikdə" sözləri "əsasında" sözü ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu sənədlər üzrə məlumatların elektron informasiya sistemlərindən əldə edilməsi mümkün olduğu hallarda həmin sənədlər şəxslərdən tələb olunmur.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 fevral 2019-cu il*
*N 1470-VQD*

## "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların

maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 8, maddə 890; 2016, N 3, maddə 428, N 11, maddə 1768, N 12, maddə 2016; 2017, N 5, maddə 739; 2018, N11, maddələr 2187, 2200) 2.2-ci maddəsinə "vergi yoxlamalarına" sözlərindən sonra "və maliyyə bazarları sahəsində aparılan yoxlamalara" sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 12 fevral 2019-cu il*
*N 1502-VQD*

## "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, N 10, maddə 1109; 2017, N 11, maddə 1973; 2018, N 11, maddə 2232; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1430-VQD nömrəli Qanunu) 2.1-ci maddəsinə "vergi yoxlamaları," sözlərindən sonra "maliyyə bazarları sahəsində aparılan yoxlamalar," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 12 fevral 2019-cu il*
*N 1503-VQD*

## "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununu "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1223-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"İcra haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 3, maddə 114; 2003, N 6, maddə 277; 2004, N 8, maddə 598, N 11, maddə 901, N 12, maddə 973; 2007, N 1, maddə 3, N 6, maddə 562, N 11, maddə 1053; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 12, maddə 952; 2010, N 2, maddə 75, N 7, maddə 591; 2011, N 6, maddə 482, N 7, maddə 618; 2012, N 11, maddə 1052; 2013, N 6, maddə 613, N 7, maddə 787, N 12, maddə 1494; 2015, N 12, maddə 1434; 2016, N 12, maddə 2050; 2017, N 2, maddə 156, N 6, maddə 1056, N 8, maddə 1511; 2018, N 2, maddə 151, N 5, maddələr 853, 867, N 7 (I kitab), maddə 1424, N 8, maddə 1674; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1440-VQD nömrəli Qanunu) 13.1.3-cü maddəsində "on gün ərzində" sözləri "dərhal" sözü ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 12 fevral 2019-cu il*
*N 1504-VQD*

## "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1223-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

"Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 40; 2001, N 10, maddə 640; 2002, N 8, maddə 478; 2003, N 6, maddə 290; 2005, N 8, maddə 717; 2006, N 1, maddə 9, N 7, maddə 590; 2007, N 6, maddə 606; 2008, N3, maddə 174; 2009, N 1, maddə 9, N 2, maddə 71; 2010, N 7, maddə 610; 2011, N 9, maddə 795, N 12, maddə 1128) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. üçüncü abzasda "76-cı maddəsinin dördüncü hissəsində" sözləri "76-cı maddəsinin doqquzuncu hissəsində" sözləri ilə əvəz edilsin;

2. dördüncü abzasda "74-cü maddəsinin altıncı hissəsində" sözləri ", 74-cü maddəsinin yeddinci hissəsində və 76-cı maddəsinin altıncı hissəsində" sözləri ilə əvəz edilsin;

3. aşağıdakı məzmunda on doqquzuncu və iyirminci abzaslar əlavə edilsin:

"həmin Qanunun 79-cu maddəsində (birinci və ikinci hallarda) "müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sistemi nəzərdə tutulur;

həmin Qanunun 79-cu maddəsində (üçüncü halda) "müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Elektron icra" informasiya sistemi nəzərdə tutulur.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 1 fevral 2019-cu il*
*N 509*

## Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında əhalinin rifahını yüksəltmək, sosial müdafiəsini və layiqli həyat səviyyəsini təmin etmək dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritetlərindəndir.

Bu istiqamətdə həyata keçirilən tədbirlər, reallaşdırılan iqtisadi və institusional islahatlar vətəndaşların yaşayış səviyyəsinin yaxşılaşmasında, yeni iş yerlərinin açılması sayəsində əhalinin məşğulluğunun və gəlirlərinin artmasında, yoxsulluq səviyyəsinin daha da azalmasında öz müsbət nəticələrini göstərməkdədir.

Lakin qlobal iqtisadi və maliyyə böhranının ölkə iqtisadiyyatına təsirləri əhalinin müəyyən qrupunun ödəmə qabiliyyətinin zəifləməsinə, bunun da nəticəsində, kredit təşkilatlarından xarici valyutada borc almış vətəndaşların bank sistemi qarşısında vaxtı keçmiş kreditlər üzrə öhdəliklərinin artmasına və bu öhdəliklərin yerinə yetirilməsi ilə bağlı məsələlərə məhkəmə müstəvisində baxılma hallarının çoxalmasına rəvac vermişdir.

Son dövrdə respublikada makroiqtisadi sabitliyin təmin olunması, iqtisadi inkişaf templərinin bərpa edilərək artması və maliyyə imkanlarının genişlənməsi digər sahələr kimi, əhalinin xarici valyutada olan ödəmə vaxtı keçmiş kredit borclarının ödənilməsinə də dövlət dəstəyi göstərilməsi üçün şərait yaratmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dünya bazarında neftin qiymətinin 3-4 dəfə azalması ilə bağlı baş vermiş devalvasiya nəticəsində fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə onların üzləşdiyi maliyyə itkisini qarşılamaq, o cümlədən problemli kreditlər məsələsinin həllinə dövlət dəstəyini təmin etmək məqsədilə **qərara alıram:**

1. Aşağıda qeyd olunan tarixlərə fiziki şəxslərin banklara 10 000 (on min) ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi aşağıdakı qaydada qiymətləndirilməklə, bu Fərman qüvvəyə mindiyi günə Azərbaycan Respublikası Mərkəzi Bankının elan etdiyi məzənnəyə uyğun olaraq, dövlət büdcəsinin vəsaiti hesabına üç aydan gec olmayaraq manatla ödənilsin:

1.1. 2015-ci il fevralın 21-nə xarici valyutada mövcud olan əsas kredit borcuna münasibətdə - 1 ABŞ dollarına 0,25 manat (0,15 ABŞ dolları) kimi;

1.2. 2015-ci il fevralın 22-dən həmin il dekabrın 21-dək bağlanmış kredit müqavilələri üzrə xarici valyutada əsas kredit borcuna münasibətdə - 1 ABŞ dollarına 0,6 manat (0,35 ABŞ dolları) kimi;

1.3. 2015-ci il fevralın 21-nə və dekabrın 21-nə mövcud olmuş xarici valyutada əsas kredit borclarına münasibətdə - bu Fərmanın 1.1-ci və 1.2-ci bəndlərində qeyd olunan hər iki qaydada nəzərdə tutulduğu kimi.

2. Bu Fərmanın 1-ci hissəsinə əsasən edilən ödəniş, ilk növbədə, fiziki şəxslərin banklar və ləğvetmə prosesində olan banklar qarşısında ödəniş müddəti keçmiş əsas kredit borclarının ödənilməsinə yönəldilsin, qalan məbləğ isə həmin fiziki şəxslərin sərəncamına verilsin.

3. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası:

3.1. Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə birlikdə bu Fərmanın 1-ci hissəsində göstərilən tələblər nəzərə alınmaqla, fiziki şəxslərin xarici valyutada olan kreditlərinin əsas məbləğinin devalvasiya nəticəsində manatla artmış hissəsinin ödənilməsi mexanizmini (qaydasını), habelə hə-

min məbləğə hesablanmış faiz və dəbbə pulu (cərimə, penya) üzrə tətbiq ediləcək güzəştləri müəyyən edərək, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla on beş gün müddətində təsdiq etsin;

3.2. bu Fərmanın 1-ci hissəsinə əsasən ediləcək ödənişin ümumi məbləğini, ödəniş ediləcək fiziki şəxslərin siyahısını və hər bir fiziki şəxsə ödəniləcək vəsaitin məbləğini qırx beş gün müddətində müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Mərkəzi Bankına məlumat versin.

4. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsinə əsasən bir fiziki şəxsə ödəniləcək vəsaitin ümumi məbləği 5 000 (beş min) ABŞ dollarının manat ekvivalentindən çox olmamalıdır.

5. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

5.1. bu Fərman qüvvəyə mindiyi tarixə fiziki şəxslərin xarici valyutada əsas məbləği 10 000 (on min) ABŞ dollarınadək, milli valyutada isə 17 000 (on yeddi min) manatadək olan kreditlər üzrə vaxtı keçmiş kredit borclarının restrukturizasiyası məqsədilə, Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının müraciəti əsasında, banklara 682 000 000,0 (altı yüz səksən iki milyon) manat məbləğinədək dövlət zəmanəti ilə təmin edilmiş güzəştli kredit verilməsini təmin etsin;

5.2. bu Fərmanın 5.1-ci bəndində nəzərdə tutulan tədbirlər nəticəsində bankların valyuta mövqeyinin pisləşməsinin qarşısını almaq məqsədilə ayrılmış kreditin hesabına banklara, onların müraciəti əsasında 215 000 000,0 (iki yüz on beş milyon) ABŞ dolları dəyərinədək xarici valyutada ifadə olunmuş, illik faiz dərəcəsi 0,5 faiz olmaqla qiymətli kağızların verilməsini təmin etsin;

5.3. bu Fərmandan irəli gələn digər tədbirlərin həyata keçirilməsini təmin etsin.

6. Banklara tövsiyə edilsin ki:

6.1. bu Fərmanın 7.1-ci bəndində nəzərdə tutulan siyahı üzrə vaxtı keçmiş kredit borcu olan fiziki şəxslərə yeni güzəştli kredit müqaviləsi bağlanmasını təklif etsinlər;

6.2. fiziki şəxslərin vaxtı keçmiş kredit borclarının restrukturizasiya olunacağını nəzərə alaraq, banklar bir ay müddətində həmin kreditlərə hesablanmış faizlərin silinməsini və məhkəmədə olan işlərin geri çağırılmasını təmin edən tədbirlər görsünlər;

6.3. borcları restrukturizasiya olunmuş fiziki şəxslərin borc yükünün yüngülləşdirilməsini təmin edən digər tədbirlər görsünlər.

7. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası:

7.1. banklarla birlikdə bir ay müddətində fiziki şəxslərin xarici valyutada əsas məbləği 10 000 (on min) ABŞ dollarınadək, milli valyutada isə 17 000 (on yeddi min) manatadək olan kreditləri üzrə vaxtı keçmiş və bu Fərmana əsasən hər bir bank üzrə restrukturizasiya olunmalı kredit borclarının məbləğini və borcluların siyahısını müəyyən edərək, bu barədə Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Mərkəzi Bankına məlumat versin;

7.2. bu Fərmanın 1-ci və 2-ci hissələrinin banklar tərəfindən icrasını nəzarətdə saxlasın və həmin hissələr icra edildikcə, bu Fərmanın 5.1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankına müraciət etsin;

7.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Müəyyən edilsin ki, bu Fərmanın məqsədləri üçün:

8.1. fiziki şəxslərin xarici valyutada 10 000 (on min) ABŞ dollarınadək və ya milli valyutada 17 000 (on yeddi min) manatadək olan əsas kredit borcları dedikdə onların bütün banklara və ləğvetmə prosesində olan banklara əsas kredit borclarının qalıq məbləğinin cəmi;

8.2. 10 000 (on min) ABŞ dollarınadək və ya 17 000 (on yeddi min) manatadək məbləğ dedikdə müvafiq olaraq 10 000 (on min) ABŞ dollarının və ya 17 000 (on yeddi min) manatın da daxil olduğu məbləğ;

8.3. bu Fərmanın 5-ci və 7-ci hissələrində fiziki şəxslərin kredit borcları dedikdə onların 2012-ci il yanvarın 1-dən bu Fərman qüvvəyə mindiyi günədək bağlanmış kredit müqavilələrinə əsasən bütün banklara və ləğvetmə prosesində olan banklara əsas kredit borclarının qalıq məbləğinin cəmi;

8.4. bank dedikdə banklar və bank olmayan kredit təşkilatları (kredit ittifaqları istisna olmaqla);

8.5. ləğvetmə prosesində olan bank dedikdə ləğvetmə prosesində olan banklar və bank olmayan kredit təşkilatları (kredit ittifaqları is-

tisna olmaqla);

8.6. vaxtı keçmiş kredit borcu dedikdə fiziki şəxslərlə 2012-ci il yanvarın 1-dən bu Fərman qüvvəyə mindiyi günədək bağlanmış kredit müqavilələri üzrə əsas məbləğin və (və ya) faiz borclarının ödənilməsi 360 gündən çox gecikdirilmiş borclar;

8.7. restrukturizasiya dedikdə əsas kredit borclarının ödənilməsi məqsədilə fiziki şəxslərə güzəştli kreditlərin verilməsi;

8.8. güzəştli kredit dedikdə fiziki şəxslərin vaxtı keçmiş kredit borclarının restrukturizasiyası məqsədilə onlara banklar tərəfindən illik faiz dərəcəsi 1 faiz, banklara isə Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən illik faiz dərəcəsi 0,1 faiz olmaqla 5 il (1 il güzəşt müddəti ilə) müddətinə verilən kreditlər;

8.9. faizlərin silinməsi dedikdə vaxtı keçmiş kredit borcları üzrə hesablanmış faizlərin və dəbbə pulunun (cərimə, penya) silinməsi;

8.10. məhkəmədə olan işlərin geri çağırılması dedikdə vaxtı keçmiş kredit borcları ilə bağlı məhkəmələrdə olan iddialardan imtina edilməsi və icra sənədi üzrə icraata xitam verilməsi ilə əlaqədar Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin və "İcra haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun tədbirlər görülməsi nəzərdə tutulur.

9. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

9.1. bu Fərmanın 5.1-ci bəndində nəzərdə tutulan dövlət zəmanətinin rəsmiləşdirilməsi üçün zəruri tədbirlər görsün;

9.2. bu Fərmandan irəli gələn digər tədbirlər görsün.

10. Əmanətlərin Sığortalanması Fonduna və ləğvedici funksiyalarının həvalə olunduğu digər şəxslərə tövsiyə edilsin ki, ləğvetmə prosesində olan banklarda fiziki şəxslərin vaxtı keçmiş əsas kredit borclarının restrukturizasiyasını təmin edən tədbirlər görsünlər.

11. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 28 fevral 2019-cu il*
N 551

## Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulmuş "gün" anlayışına dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr),

Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov (məruzəçi hakim) və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin, maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri İlqar Cəfərov, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun İstintaqa nəzarət şöbəsinin prokuroru, ədliyyə mayoru Fərəc Sayılov və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin məsləhətçisi Kəmalə Paşayevanın, ekspert Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Kəmalə Nəzərovanın, mütəxəssis Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İnqilab Nəsirovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin

333-cü maddəsində nəzərdə tutulmuş "gün" anlayışının hansı müddəti ehtiva etməsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra - Cinayət Məcəlləsi) 333-cü maddəsində nəzərdə tutulmuş cinayətin subyektlərinin hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmələri və ya üzrlü səbəblər olmadan xidmət yerinə vaxtında gəlməmələri halları üzrə həmin maddədə göstərilən "gün" anlayışının hansı müddəti ehtiva etməsinin şərh edilməsini xahiş etmişdir.

Sorğu onunla əsaslandırılmışdır ki, Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulan cinayətin subyektlərinin hərbi hissəni özbaşına tərk etmə və ya xidmət yerinə vaxtında gəlməmələrinin günlərlə hesablandığı hallarda onların əməllərinə cinayət hüquqi qiymət verilməsi ilə bağlı məhkəmə təcrübəsində ziddiyyətlər yaranmışdır. Belə ki, məhkəmələr tərəfindən əksər hallarda Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1-ci maddəsinin şərh edilməsinə dair" 2005-ci il 18 iyul tarixli Qərarına istinad edilərək hərbi qulluqçular hərbi hissəni və ya xidmət yerini tərk etdikləri və xidmət yerinə gəlmədikləri andan növbəti gün eyni saatadək olan müddət 1 gün kimi hesablanmaqla Cinayət Məcəlləsinin 333-cü maddəsi ilə təqsirli bilinərək məhkum edilirlər.

Lakin bəzi məhkəmələr bu müddətin hesablanması ilə bağlı fərqli mövqeyə əsaslanaraq göstərmişlər ki, Cinayət Məcəlləsinin 333-cü maddəsində müddətlər saatlarla deyil, günlərlə göstərildiyinə görə, həmin maddədə nəzərdə tutulmayan vaxt ölçüsü kimi saata istinad edilməsi və şəxsin cinayət məsuliyyətinə günün deyil, saatın keçməsi ilə bağlı cəlb edilməsi hüquqi müəyyənlik prinsipinin tələblərinə ziddir. Bu halda məhkəmələr Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra - Cinayət-Prosessual Məcəlləsi) 202.1-ci maddəsinə istinad edərək belə nəticəyə gəlirlər ki, cinayət mühakimə icraatı zamanı həmin Məcəllə ilə müəyyən edilmiş müddətlər saatlar, günlər, aylar, illərlə hesablanır və Cinayət Məcəlləsinin 333-cü maddəsində göstərilən müddət günün bitməsi və növbəti günün başlaması kimi gecə saat 12:00-dan sonra hesablanmalıdır.

Göstərilənlərə əsasən sorğuverən hesab edir ki, məhkəmələr tərəfindən Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulmuş "gün" anlayışına cinayət-prosessual qanunvericiliyinə istinad olunmaqla cinayət hüquqi qiymət verilməsi həmin maddənin tətbiqi sahəsində ziddiyyətlər yaradır.

Sorğu ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Cinayət Məcəlləsinin 333.1-ci maddəsinə əsasən, çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etməsi və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməməsi üç gündən artıq, lakin on gündən çox olmadıqda və ya üç gündən az olsa belə, eyni əməllər altı ay ərzində təkrar törədildikdə bir ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə cəzalandırılır.

Cinayət Məcəlləsinin qeyd olunan maddəsində nəzərdə tutulan cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, həmin əməlin törədilməsi ilə hərbi qulluq keçmənin qanunla müəyyən edilmiş qaydalarına qəsd edilməsi Azərbaycan Respublikasının Silahlı Qüvvələrində intizamın aşağı səviyyəyə düşməsinə, ordunun döyüş qabiliyyətinin zəifləməsinə səbəb olur. Qeyd olunan cinayətin obyekti hərbi xidmət keçmənin qanunvericiliklə müəyyən edilmiş qaydasıdır. Cinayət Məcəlləsinin 333.1-ci maddəsində nəzərdə tutulmuş cinayət tərkibinin obyektiv cəhəti aşağıdakı əlamətlərdən ibarətdir:

- hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və üzrlü səbəb olmadan öz xidməti yerinə vaxtında gəlməmə;
- həmin əməlin 3 gündən artıq, lakin 10 gündən çox olmamaqla davam etməsi, yaxud həmin əməllərin 3 gündən az olsa da, 6 ay ərzində təkrar törədilməsi.

Göstərilən cinayətin obyektiv cəhətinin zəruri əlamətlərindən biri özbaşına tərk etmənin və ya vaxtında gəlməmənin müddətləridir. Qeyd olunan əməllərin cinayət məsuliyyətinə səbəb olması üçün özbaşına tərk etmə və ya vaxtında gəlməmə 3 gündən 10 günədək olmalı, yaxud 3 gündən az olsa belə, 6 ay ərzində təkrar törədilməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 333-cü maddəsində göstərilən cinayətin subyektlərinin hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmələri və ya üzrlü səbəblər olmadan xidmət yerinə vaxtında gəlməmələri halları üzrə həmin maddədə göstərilən "gün" anlayışının hansı müddətləri ehtiva etməsinin dəqiq müəyyən edilməsi həmin cinayətin obyektiv cəhətinin müəyyənləşdirilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Bunun düzgün müəyyən olunmaması həmin əməlin cinayət məsuliyyətinə səbəb olub-olmamasının araşdırılmasında səhv nəticələrə gətirib çıxara bilər.

Qeyd olunmalıdır ki, Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 333-cü maddəsinin şərh edilməsi ilə bağlı bir neçə qərar qəbul edərək mühüm hüquqi mövqelər formalaşdırmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin birinci hissəsinin və 3-cü maddəsinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsinin şərh edilməsinə dair" 2001-ci il 26 oktyabr tarixli Qərarında göstərmişdir ki, "Hərbi qulluqçuların statusu haqqında" Qanunun 2-ci maddəsinin birinci hissəsində göstərilən şəxslər öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etməsinə və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməməsinə görə Cinayət Məcəlləsinin 333-cü maddəsi ilə cinayət məsuliyyəti daşıyırlar.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1-ci maddəsinin şərh edilməsinə dair" 2005-ci il 18 iyul tarixli Qərarında bu maddənin obyektiv cəhətini nəzərə alaraq belə qənaətə gəlmişdir ki, həmin maddədə göstərilən müddətlərin əvvəli hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etdiyi andan və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə müəyyən edilmiş müddətdə gəlmədiyi vaxtdan hesablanır.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin şərh edilməsinə dair" 2017-ci il 2 iyun tarixli Qərarında da göstərildiyi kimi, həmin maddələrin dispozisiyasında əməlin müəyyən müddət ərzində təkrar törədilməsi hərbi hissəni özbaşına tərk etmə cinayətinin obyektiv cəhətinin tərkib əlaməti kimi nəzərdə tutulmuşdur. Belə ki, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etməyə görə Cinayət Məcəlləsinin 333.1-ci maddəsi ilə cinayət məsuliyyəti o zaman yaranır ki, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlməmə müddəti üç gündən artıq, lakin on gündən çox olmasın, yaxud üç gündən az olsa da, eyni əməllər altı ay ərzində təkrar törədilmiş olsun.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 333-cü maddəsində göstərilən "gün" anlayışı şərh edilərkən məhz həmin Məcəllənin vəzifə və prinsipləri, hüquqi müəyyənlik prinsipi, eləcə də Konstitusiya Məhkəməsi Plenumunun bu maddə ilə bağlı Qərarlarında formalaşdırdığı hüquqi mövqelər əsas götürülməlidir.

Konstitusiya Məhkəməsi Plenumunun hüquqi müəyyənlik prinsipi ilə bağlı formalaşdırdığı hüquqi mövqeyə görə, hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas aspektlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün hüquq normaları birmənalı və aydın olmalıdır. Bu öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarını müdafiə edəcəyinə, hüquq tətbiq edənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir ("Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinin və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 180.3-cü maddəsinin müddəalarının şərh edilməsinə dair" 2008-ci il 22 sentyabr tarixli Qərar).

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi bir çox qərarlarında göstərmişdir ki, əsas hüquqların məhdudlaşdırılması yalnız o halda qanunla müəyyən olunmuş hesab edilə bilər ki, şüurlu şəxs norma ilə

tanış olaraq və hüquqşünasın yardımına və ya məhkəmə təcrübəsinə müraciət etmədən öz hərəkətlərinin nəticələrini kifayət qədər dəqiq dəyərləndirə bilsin. Məhkəmə, həmçinin hesab etmişdir ki, baxılan aspektdə hüquqi müəyyənlik üçün əsas təhlükəni hədsiz ümumi ifadələr, əsas terminlərin açıqlanmaması və ya eyni terminlərin müxtəlif qanunlarda müxtəlif şərhlərinin mövcudluğu yaradır (Landvreugd Hollandiyaya qarşı iş üzrə 2002-ci il 4 iyun tarixli; Brumarescu Rumıniyaya qarşı iş üzrə 1999-cu il 28 oktyabr tarixli Qərarlar).

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu bir daha vurğulayır ki, cinayət hüquq normalarının dəqiqliyi, aydınlığı, birmənalılığının ümumhüquqi meyarları hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipindən irəli gəlir və bu meyarlar Cinayət Məcəlləsinin qanunçuluq prinsipinin təmin edilməsinə xidmət edir. Belə ki, hamının qanun və məhkəmə qarşısında bərabərlik və qanunçuluq prinsiplərinin təmin edilməsi yalnız cinayət hüquq normalarının bütün hüquq tətbiq edən orqanlar tərəfindən vahid anlaşılması və şərhi nəticəsində mümkündür. Əksinə, qanunçuluq prinsipi baxımından hüquq normalarının məzmununun qeyri-müəyyənliyi hüquq tətbiqetmə prosesində hədsiz mülahizələrə və özbaşınalığa gətirib çıxarmaqla bərabərlik, qanunun aliliyi prinsiplərini pozmuş olar.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsində "gün" anlayışına açıqlama verilmədiyi üçün bu anlayışa izah vermək məqsədi ilə həmin qanunvericiliyə daha yaxın olan və cinayət-hüquqi tədbirlərin tətbiq edilməsinin hüquqi prosedurlarını müəyyən edən Cinayət-Prosessual Məcəlləsinə müraciət olunmalıdır.

Bununla bağlı qeyd olunmalıdır ki, cinayət qanunvericiliyi onun qarşısında duran üç vəzifəni müəyyən edir. Bu, ilk növbədə, cinayət qanunvericiliyində göstərilən obyektləri cinayətkar qəsdlərdən qorumaq; sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etmək; cinayətlərin qarşısını almaqdır. Həmin vəzifələri həyata keçirmək üçün Cinayət Məcəlləsinin cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir.

Cinayət-prosessual qanunvericiliyi isə cinayət əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayət törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamasını, habelə cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin prosedurlarını müəyyən edir (Cinayət-Prosessual Məcəlləsinin 1.1-ci maddəsi).

Cinayət-Prosessual Məcəlləsinin təyinatı cinayət hesab edilən hər bir hadisənin açılmasına, cinayət törətmiş şəxslərin ifşa və məhkum edilməsinə, təqsirsiz şəxslərin təqib və məhkum edilməsinin qarşısının alınmasına xidmət edir. Başqa sözlə, Cinayət-Prosessual Məcəlləsi cinayət hüquq normalarının tətbiq edilməsi üçün prosessual vasitələri müəyyən edir.

Cinayət-Prosessual Məcəlləsinin normaları Cinayət Məcəlləsinin normalarına dəyişikliklər və ya düzəlişlər edə bilməz, onlar yalnız Cinayət Məcəlləsinin normalarının reallaşdırılmasına istiqamətlənməlidir. Buna görə, normalar arasında kolliziyalar müəyyən edildikdə, ilk növbədə, Cinayət Məcəlləsinin müvafiq normalarının müddəaları aydınlaşdırılmalı, daha sonra isə Cinayət-Prosessual Məcəlləsinə müraciət edilməlidir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18 və 83.1-ci maddələrinin şərh edilməsinə dair" 2010-cu il 6 sentyabr tarixli Qərarı).

Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarındakı yanaşma belə nəticəyə gəlməyə imkan verir ki, Cinayət Məcəlləsində nəzərdə tutulmayan hər hansı anlayışın cinayət-prosessual qanunvericiliyində müəyyən edilmiş açıqlaması Cinayət Məcəlləsinin məqsəd və vəzifələrinə, prinsiplərinə, eləcə də hüquqi müəyyənlik prinsipinə uyğun gəldiyi halda cinayət hüquq normasının tətbiqi zamanı nəzərə alına bilər.

Cinayət-Prosessual Məcəlləsinin 202-ci maddəsində prosessual müddətlərin hesablanması qaydasından bəhs olunur. Həmin maddəyə əsasən, cinayət mühakimə icraatı zamanı bu Məcəllə ilə müəyyən olunmuş müddətlər saatlar, günlər, aylar və illərlə hesablanır. Cinayət mühakimə icraatı zamanı müddətlər günlərlə hesablanarkən müddət birinci gün gecə saat 12-də

başlayır və müddətin sonuncu günü gecə saat 12-də qurtarır.

Göründüyü kimi, qanunverici bu maddədə gün anlayışının başlanğıcını və qurtarmasını 24 saat (sutka) çərçivəsində müəyyən etmişdir.

Bununla bağlı Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsində "gün" anlayışının izahı verilmədiyi üçün həmin Məcəllənin 333-cü maddəsində göstərilən "gün" anlayışı məhz cinayət-prosessual qanunvericiliyində işlədilən 24 saatlıq müddət (sutka) mənasında başa düşülməlidir. Bu baxımdan qeyd olunmalıdır ki, Cinayət Məcəlləsinin 333-cü maddəsində göstərilən müddətlər çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etdiyi və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlmədiyi andan bir günün 24 saat olması nəzərə alınmaqla hesablanmalıdır (məsələn, hərbi qulluqçu öz hərbi hissəsini səhər saat 9:00-da tərk etdikdə tərk etmənin bir günü növbəti gün səhər saat 9:00-da bitir). Belə yanaşma Cinayət Məcəlləsinin məqsəd və vəzifələri, prinsipləri ilə ziddiyyət təşkil etmir, hüquqi müəyyənlik prinsipindən irəli gəlir və Konstitusiya Məhkəməsi Plenumunun yuxarıda qeyd olunan hüquqi mövqelərinə uyğundur.

Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiyanın Preambulasını rəhbər tutaraq qeyd edir ki, Cinayət Məcəlləsinin 333-cü maddəsində qeyd olunan "gün" anlayışına belə şərh verilməsi ölkəmizin suverenliyini və ərazi bütövlüyünü qorumaq və hərbi intizamı möhkəmləndirmək, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüş hazırlığını yüksəltmək məqsədinə xidmət etmiş olur.

Konstitusiyanın Preambulasında Azərbaycan xalqının Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti bəyan edilmişdir. Bu niyyətin həyata keçirilməsi məqsədi ilə dövlət vətəndaşlara münasibətdə vəzifələr müəyyən etmişdir.

Konstitusiyanın IV fəslində nəzərdə tutulan vətəndaşların əsas vəzifələrindən biri də vətəni müdafiədir. Konstitusiyanın 76-cı maddəsinin I hissəsinə görə, vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər.

Hərbi xidmət keçmənin qaydaları "Hərbi vəzifə və hərbi xidmət haqqında" və "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanunları, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi və digər qanunvericilik aktları ilə müəyyən olunur. Hərbi qulluqçular Azərbaycan Respublikasının qanunlarında və hərbi nizamnamələrdə müəyyən olunmuş hərbi intizama ciddi riayət etməlidirlər. Hərbi intizama ciddi riayət olunmaması cinayət qanunu ilə mühafizə olunan ictimai münasibətlərin pozulması ilə nəticələnir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulmuş "gün" anlayışı 24 saatlıq müddəti ehtiva edir.

Həmin maddədə göstərilmiş müddətlər çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etdiyi və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlmədiyi andan bir günün 24 saat olması nəzərə alınmaqla hesablanmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333-cü maddəsində nəzərdə tutulmuş "gün" anlayışı 24 saatlıq müddəti ehtiva edir.

Həmin maddədə göstərilmiş müddətlər çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etdiyi və ya üzrlü səbəblər olmadan öz xidmət yerinə vaxtında gəlmədiyi andan bir günün 24 saat olması nəzərə alınmaqla hesablanır.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

3. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**
*Bakı şəhəri, 14 fevral 2019-cu il*